

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
12 dekabr 2024-cü il, cümə axşamı
№ 229 (6815)
Qiyməti 60 qəpik

# Ehtiramla anırıq!



# Heydər Əliyev siyasəti - milli məfkurədən müstəqil dövlətə

Bax səh. 3

## Azərbaycan Türkiyə ilə birlikdədir!

Bax səh. 2

## Əməkdaşlığın yeni gündəliyi

İqtisadiyyat naziri Mikayıl Cabbarov ilə Serbiya Baş nazirinin birinci müavini Sinişa Mali ilə keçirilən videokonfrans formatında görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, o cümlədən energetika sektorunda birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib. Azərbaycanın Avropanın və Serbiyanın enerji təhlükəsizliyinə verdiyi töhfəni yüksək dəyərləndirən Sinişa Mali bunun qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslandığını vurğulayıb. Bildirilib ki, Azərbaycan və Serbiya arasında imzalanmış müqavilə və sənədlər müasir əməkdaşlıq gündəliyinin genişlənməsinə və potensialların reallaşdırılmasına, o cümlədən enerji sektorunda dayanıqlı təminatlara möhkəm hüquq baza yaradır.

Qeyd edək ki, Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizi koalisiyasında yer alan Avropa İttifaqı (Aİ) ölkələrindən biri kimi Serbiya ilə sıx əməkdaşlıq 2 ilə yaxındır ki, müsbət dinamika üzrə davam etməkdədir. Ölkəmizin enerji tədarükü şaxəsinə qoşulan Serbiya maye yanacaqla təchiz edilən 12-lik ölkələri sırasında ilk yerlərdən birini tutur. 2023-cü ildə Azərbaycanın Energetika Nazirliyi ilə Serbiyanın Mədənçilik və Energetika Nazirliyi, eləcə də SOCAR və "Srbijagas" arasında əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu və qaz satışına dair Müqavilə imzalanıb. Həmin sənədlərin icrası ötən ildən təmin edilməyə başlayıb və Bolqarıstan-Serbiya İnterkonnektoru vasitəsilə Serbiyaya çatdırılması mümkün olub. Ölkəmiz Serbiyaya ilk mərhələdə illik 400 milyon kub metr qaz tədarük etsə də, nəql həcmləri artıqca yanacağın təchizatının da çoxaldılması nəzərdə tutulur. Gələcəkdə qaz tədarükünü 1 milyard kub metrə çatdırılması ilə bağlı razılaşmalar əldə edilib.

Serbiya Azərbaycanın Avropada qaz bazarını...

Bax səh. 5

## "Müdrik siyasət, tarixi uzaqgörənlik, Böyük Qayıdış: Qarabağda və Şərqi Zəngəzurda quruculuq-bərpa prosesi"

Bax səh. 4

## İrəvan Əsəd rejiminin ən yaxın müttəfiqi idi

Bax səh. 7

## "Yaşıl enerji"də rekordlar davam edir

Azərbaycanın müasir enerji gündəliyində prioritet yer tutan "yaşıl enerji"yə keçid siyasəti öz mühüm uğurları ilə müşayiət olunmaqdadır. "Yaşıl enerji" konsepsiyasına əsasən, 2030-cu ilə qədər iki beşillik plan müəyyən edilib. Birinci mərhələni əhatə edən 2022-2026-cı illərə dair strategiya sənədi çərçivəsində enerji istehsalı gözləniləndən də ümidverici olub. Energetika nazirinin müavini Elnur Soltanov mediaya açıqlamasında bildirib ki, bütün elektrik enerjisi üzrə qoyuluş gücün həcmi hazırda 8 min MVt-dan artıqdır. Həmin güc bazası növbəti beşillik fazada daha da artacaq və 2030-cu ilə qədər ümumi enerji balansı gücündə "yaşıl enerji"nin payı 30 faizə çatdırılacaq.

Qeyd edək ki, 2024-cü il başlayandan hər rübdə "yaşıl enerji" istehsalında əhəmiyyətli artımlar qeydə alınır və ötən ilin 10 ayı ilə müqayisədə 2024-cü ilin yanvar-oktyabr aylarında bərpaolunan enerji istehsalı 80 faizdən çox artıb. Belə ki, qeyd edilən dövrdə ölkəmizdə 3,4 milyard kVt·st-ı "yaşıl enerji" istehsal olunub ki, bu, 2023-cü ilin yanvar-oktyabr aylarına nisbətən 1,5 milyard kVt·st çoxdur. Bərpaoluna enerji portfelində su elektrik stansiyalarının (SES) payı daha xüsusi üstünlük təşkil edir. SES-lər tərəfindən 2,6 milyard kVt·st-a yaxın enerji istehsal olunub ki, bu son illərin ən yüksək göstəricisidir. Külək elektrik stansiyalarında 44,8 milyon kVt·st, günəş elektrik stansiyalarında 515,3 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 192,2 milyon kVt·st elektrik enerjisi istehsal edilib.

Hazırda "yaşıl enerji"nin payı ölkə üzrə ümumi enerji balansında 15 faizə bərabərdir. Hədəf isə bərpaolunan enerjinin payını 2030-cu ilə qədər 2 dəfə...

Bax səh. 6




## ABŞ-ın "mükafatı"...

Bax səh. 6

## Təyyarə vuruldu...




### Yardıma getmişdi, xain atəşinə tuş gəldi

Bax səh. 5

# Dünya üçün nümunə...

## İlham Əliyev Amerika İsrail İctimai Əlaqələr Komitəsinin prezidentini və yeni seçilmiş prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlıqlarını bildirən Maykl Tuçin və Bernard Kaminetski dövlətimizin başçısı ilə əvvəlki görüşlərini məmnunluqla xatırladılar. Onlar Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür etdilər.

Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını dedilər və qeyd etdilər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.

Maykl Tuçin və Bernard Kaminetski, həmçinin Azərbaycanda yəhudi icmasının fəaliyyəti və dini ayinlərini həyata keçirməsi üçün yaradılan şəraitə, yəhudi ibadət ocaqlarına dövlət səviyyəsində göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə etdilər.

Dövlətimizin başçısı da öz növbəsində qeyd etdi ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlər boyu ölkəmizdə bu cür harmonik ab-hava mövcud olub. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar, eyni zamanda, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.



Dövlətimizin başçısı Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə beynəlxalq səviyyədə ciddi töhfə verdiyini və Bakının bu xüsusda aparılan müzakirələrin ev sahibi olduğunu qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Türkiyə ilə birlikdədir!

## Qardaşlıq və dostluq münasibətləri strateji müttəfiqlik zəminində inkişaf edir

**24 illik Bəşər Əsəd rejiminin devrilməsi ilə Suriya yeni tarixi dönəmə qədəm qoyur. Ötən illər ərzində ölkədə baş verən hadisələr, sosial-siyasi, hərbi gərginliklər istər əhali arasında, istərsə də ordu daxilində böyük narazılıqlar formalaşdırmışdı. Xalq açıq şəkildə öz etiraz səsini ucaldır, Əsəd rejiminin apardığı siyasətə "yox" deyirdi. Ard-arda baş verən vətəndaş müharibələri, qarşıdurmalar isə hakimiyyət üçün dərs olmadı - ötən dövrdə müharibədə yaranan müvəqqəti sükutdan milli birlik, milli barışıq üçün istifadə olunmadı. Tam əksinə, Əsəd rejimi qeyri-konstruktiv və aqressiv hərəkətlərini davam etdirdi. Nəticə etibarı ilə, aqibəti əvvəldən bəlli olan Əsəd hakimiyyəti özünün məntiqi sonunu gətirdi.**

### Terrorizmə qarşı mübarizə...

Bu gün artıq yeni siyasi dövr formalaşır. Suriyada baş verən hadisələr əsl reallığı ortaya qoyur - xalqına güvənməyən, xalqının etimadını doğrultmayan, yalnız özünün hakimiyyətini qorumağa yönəlik fəaliyyətlə yadda qalan Bəşər Əsəd ölkənin gələcəyini sual altına qoymuşdu. Amma artıq vəziyyət dəyişib. Artıq yeni hədəflər uğrunda müzakirələr aparılır, addımlar atılır. Bu gün Suriyada milli birlik hökumətinin yaradılmasına böyük ehtiyac var və bu amil Suriyanın ərazi bütövlüyünün saxlanması üçün vacib şərtlərdən biridir. Bölgənin aparıcı aktoru kimi Türkiyə problemlərin həllində mühüm rol oynayır. Uzun illərdir ki, Suriyadakı müharibələrdən mühacirət etmək məcburiyyətində qalmış əhaliyə sığınacaq və pənah yeri olan Türkiyə bu gün vəziyyətin stabilləşməsi üçün önəmli işlər görür. Ankara hərbi qarşıdurma başlanan dövrdən mülki vətəndaşlarla bağlı öz narahatlığını ifadə etmiş, humanitar yardım məsələsində bir daha önə çıxmışdı. Bölgədə terrorizmin sona yetməsi üçün Türkiyə bütün gücünü səfərbər etdi - məhz Türkiyənin dəstəyi ilə Suriyanın ərazisində terrorizmə qarşı mübarizə daha da qəti hal almağa başladı. Artıq yeni siyasi reallıqlarda Türkiyə özünün yeni dəstək imkanlarını təqdim edir. Qarşıdan gələn dövrdə Suriyada proseslərin dinc inkişafı üçün Türkiyə yenidən töhfələr verməyə hazır olduğunu bildirir.



### Bakı Ankara ilə birlikdə...

Xüsusi vurğulamaq lazımdır ki, Türkiyə ilə rəsmi müttəfiqlik bəyannaməsi - "Şuşa Bəyannaməsi"ni imzalayan Azərbaycan da uzun illər terrordan əziyyət çəkib. Bununla belə, Azərbaycan hər zaman qlobal məkanda terrorizmə qarşı mübarizənin ön sırasında yer alıb, bu kimi tədbirləri dəstəkləyib. Suriyada cərəyan edən hadisələrlə bağlı da Azərbaycanın mövqeyi açıq və aydındır - qardaş Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına böyük ümidlər bəslənilir. Yeri gəlmişkən, dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar. Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub. Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər. Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan bütün sahələrdə olduğu kimi Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib. Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**Türkiyə ilə rəsmi müttəfiqlik bəyannaməsi - "Şuşa Bəyannaməsi"ni imzalayan Azərbaycan da uzun illər terrordan əziyyət çəkib. Bununla belə, Azərbaycan hər zaman qlobal məkanda terrorizmə qarşı mübarizənin ön sırasında yer alıb, bu kimi tədbirləri dəstəkləyib. Suriyada cərəyan edən hadisələrlə bağlı da Azərbaycanın mövqeyi açıq və aydındır - qardaş Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına böyük ümidlər bəslənilir**

**"Azərbaycan Respublikası Suriyada vəziyyət sabitləşəndən sonra Azərbaycanla Suriya arasında ikitərəfli münasibətlərin bərpa olunacağına, əməkdaşlığın qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipi əsasında inkişaf edəcəyinə ümidvardır"**

### Azərbaycanın qardaş dəstəyi...

Bəli, vurğulandığı kimi, Azərbaycan ilə Türkiyə qlobal problemlərin həllində, irəli sürülən təşəbbüslərdə, göstərilən humanitar yardımlarda hər zaman eyni mövqedən çıxış edir. Hər iki ölkə məsələlərə məhz beynəlxalq hüquq və ədalət prinsipləri çərçivəsində yanaşma sərgiləyirlər - bu birlik, birgəlik isə mühüm bir coğrafiyanın iqtisadi əsaslarını gücləndirir, təhlükəsizlik arxitekturasını formalaşdırır, əməkdaşlıq prinsiplərinin sərhədlərini müəyyənləşdirir. Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr qardaşlıq, müttəfiqlik müstəvisində inkişaf edir. Bu mənada Suriyaya nəzərən nümayiş olunan mövqelərin üst-üstə düşməsi də qanunauyğunluq sayılmalıdır. Hər iki dövlət münaqişələrin sülh yolu ilə tənzimlənməsinin tərəfdarı kimi çıxış edir - Türkiyə və Azərbaycan dünyada baş verən hərbi kataklizmlərin sonlandırılması üçün qlobal dünyaya çağırışlar edirlər. Hər iki dövlət yaşıl gələcək uğrunda hədəflərini koordinasiya edərək yeni imkanların yaranması üçün səfərbər olur. Vurğulandığı kimi, Azərbaycan qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hər zaman hazırdır...

### XİN: Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir

Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Suriyada son vəziyyətlə bağlı bəyanatında da bildirilib ki, ölkəmiz Suriyada baş verən prosesləri izləyir. Bu çərçivədə, eyni zamanda, qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir. Vurğulanıb ki, Suriyada Bəşər əl-Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunması, vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir. "Azərbaycan Respublikası Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir, Suriya xalqının iradəsinə uyğun şəkildə, habelə ölkədaxili siyasi dialoq vasitəsilə məsələlərin həllini tapacağına ümidvar olduğunu bildirir. Azərbaycan Respublikası qardaş Türkiyə Respublikası və digər həmfikir tərəfdaşlarla birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına töhfə verməyə hazırdır", - deyə bildirilən bəyanatda Azərbaycanın Suriyada səfirliyinin mövcud olmamasına baxmayaraq, Suriyada Azərbaycan vətəndaşlarının sayının və yerinin müəyyən edilməsi istiqamətində iş aparıldığı da yer alır: "Azərbaycan Respublikası, həmçinin 2020-ci ildən başlayaraq Türkiyə Respublikasının ərazisi vasitəsilə həyata keçirilməkdə olan vətəndaşlarımızın Suriya Ərəb Respublikasından ölkəmizə repatriasiyası işini davam etdirəcək. Azərbaycan Respublikası Suriyada vəziyyət sabitləşəndən sonra Azərbaycanla Suriya arasında ikitərəfli münasibətlərin bərpa olunacağına, əməkdaşlığın qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipi əsasında inkişaf edəcəyinə ümidvardır".

***P.İSMAYILOV***

# Heydər Əliyev siyasəti - milli məfkurədən müstəqil dövlətə



Heydər Əliyev minillik dövlətçilik tariximizə milli məfkurəyə istinad edən ilk və yeni Azərbaycan dövlətinin qurucusu kimi daxil olmuş şəxsiyyətdir. O, əvvəl milli məfkurəni, sonra müstəqil dövləti yaratdı. Hakimiyyətdə olduğu bütün dönəmlərdə ədəbiyyatı nəinki iqtisadiyyatın, eləcə də siyasətin, gücün ayağına verməd. Bütün fəaliyyəti dövründə ədəbiyyata, onun müxtəlif dövrlərində yaşayıb-yaratmış ədiblərinə qədirşünas mövqedən yanaşan Heydər Əliyevin rəhbər kimi özəlliyi bəlkə də elə buradan başlayır. Ədəbiyyatşünas alim Yaşar Qarayev "Müstəqillik dövrünün milli öndəri" məqaləsində yazır: "Tarix boyu həmişə dövlət və elm (sənət, poeziya...) həmin şüurun və yaddaşın keşiyində qoşa dayanıb. İngiltərə ali Kral Elm Qurumundan tutmuş Rusiyanın qədim imperiya akademiyasına qədər hər yerdə ali elm qurumlarını ən ali dövlət ərləri, ümummilli öndərlər hamiliyə götürüb. Lakin Mustafa Atatürkə qədər hələ heç kəs milli tarixdə və taledə tutduğu yerə, paya, çəkiyə görə elm-dövlət nisbətinə bu qədər aydın mövqe təsnifi, missiya, rol bölgüsü və modeli təqdim etməyib: "Dövlətin təməli-kültürdur". Türk kültürü isə türkcədən başlayır. Dövlətçilikdə "kültür və dil" konsepsiyası bu tamlıqda və bütövlükdə öz ifadəsini bizim zəmanədə Heydər Əliyevin əməlində və işində tapır".

Heydər Əliyevin poeziyaya, şeirə, sənətə olan sevgisi yalnız təzahür olaraq hasilə gəlmir, konsepsiya, təlim səviyyəsində gerçəkləşir. Ümummilli lider xalqı və dövləti qorumağın, uca tutmağın, onun milli kimlik və mənlik qürurunun gizləndiyi, ehtiva olunduğu məqamların nələrdə, hansı dəyərlərdə ehtiva olunduğunu bilirdi. "Ən çox sevdiyin şair kimdir?" sualına Şəhriyar, ən çox sevdiyin şeir hansıdır" sualına isə Səməd Vurğunun "Azərbaycan" şeiri deyə cavab vermişdir. Əslində, onların hər ikisi böyük öndər üçün Azərbaycan demək idi. Onun Şəhriyar sevgisi də, Səməd Vurğunun "Azərbaycan" şeirinə kövrəlib ağlaması da, Hüseyn Cavidin nəşinin Vətənə qaytarılma fədakarlığı, onlarla sənətkarımıza qoydurduğu abidələr, keçirtdiyi yubiley tədbirlərinin də əsas xətti millətə yönəlik olan sevginin gücünə söykənirdi: "Heydər Əliyev Azərbaycanın gücüdür. Rəmz və əks deyil. Gücün özüdür. Azərbaycanı azərbaycanlıların ixtiyarına verən və Azərbaycan xalqı "öz taleyinin sahibidir" - deyən ilk böyük dövlət xadimimizdir Heydər Əliyev. Ona qədər Azərbaycan tarixində belə bir siyasi kontekstin olmadığı hər kəsə bəllidir" (Azər Turan).

1970-ci illərdə Moskva siyasi dairələrində kifayət qədər nüfuz sahibi olan Heydər Əliyev bu nüfuzdan xalqının milli kimliyinin və müəyyənliyinin  dərki üçün yararlandı. Bütün siyasi fəaliyyəti boyu əsas diqqətini xalqın tarixi şəxsiyyətlərinin yaradıcılığının poetik dövriyyəyə gətirilməsinə, yaddaş faktına çevrilməsinə, milli genefondun varlıq göstəriciləri olmaları işinə sərf elədi. N.Gəncəvinin, İ.Nəsiminin, M.P.Vaqifin, M.Ş.Vazehin, N.Nərimanovun heykəllərinin qoyulması, onların irsini dirçəltmək imkanları ağlasığmaz əzmkarlıqdan hasilə gəlirdi və siyasi lider olaraq Heydər Əliyevin bütün fəaliyyətinin prioritet istiqamətini təşkil edirdi. Əbəs deyil ki, Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi 90-cı illərdə ondan bəhs edilən məqamlar məhz liderin hakimiyyət dövrünün birinci mərhələsindəki quruculuq proseslərinə dayaqlanırdı.

Sovet epoxası daxilində Heydər Əliyevin üzünü yaddaşa çevirən tarixə - özündə xalqın milli kodunu və möhürünü əbədiləşdirən söz sənətinə tutması ilk növbədə, onda çağdaşlıq faktı aramaq, bu yolla ədəbi prosesə, yeni düşüncəyə təsir etmək niyyətindən irəli gəlirdi. Xalqın milli dəyərlərinin dirçəlişindən başlayırdı Heydər Əliyev və bu istiqamətdə seçdiyi hədəflər, ünvanlar da dəqiq, çəkili və sərrast idi. Böyük sənət abidələri, böyük söz ustadları, böyük söz sərrafları... Heydər Əliyevin Cənub ədəbiyyatı mövzusuna həssaslığının mayası da bu amaldan nəşət tapırdı. Onun təşəbbüsü ilə Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatına yeni münasibət formalaşdı, bu işlərə istiqamət vermək birlikdə Balaş Azəroğluya həvalə edildi.  Eləcə də ilk dəfə olaraq Cənubi Azərbaycan ədəbiyyatı araşdırma mərkəzinin təməlini qoydu Heydər Əliyev. O da maraqlı faktdır ki, Heydər Əliyev haqqında ilk şeiri Səhənddən oxuyuruq. Sair Bulud Qaraçörlü Səhəndin (1927-1979) 1974-cü ildə Heydər Əliyevə ünvanladığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" adlanan şeiri məktub formasında yazılıb:

*İstərdim Bakıda SƏN də olaydın.*
*Hamıdan dinlərkən vəsfini Sənin,*
*Heyf ki, görüşmək qismət olmadı.*
*Bisütunlar çapdım mən Fərhad təkin,*
*Ancaq ki, su gəlib arxa dolmadı.*
*Mən istərdim doğma bir qardaş kimi*
*Oturub, əyləşib danışam Sənlə*
*Bir məsləkdaş kimi, bir yoldaş kimi*
*Söz-söhbət açaydım ana Vətəndən.*

Hakimiyyətdə olduğu zaman kəsimlərində Heydər Əliyev Azərbaycanın mənəvi reallığı üçün böyük siyasətçi, dövlət adamı olaraq həm də ədəbiyyatlaşan obrazı ilə göz önünə gəlir. Bu obraz ədəbiyyat üçün konkret nəyi ifadə edir? İlk növbədə, ədəbiyyata, poeziyaya sevgini. Onun çıxışlarında milli ədəbiyyatımızı gərəyincə bütöv duyub anlamaq səriştəsi vardı, prosesə yanaşma strategiyası düzgün idi, bəhs etdiyi mövzularda problemlərin dərkini səmtləndirə bilirdi. Və ən əsası, Azərbaycan ədəbiyyatı haqqında öz anlayışı, müşahidəsi, elmi qənaətləri olan bir şəxsin prosesə konseptual yanaşmadan hasilə gələn məntiqi ehtiva olunurdu... Heydər Əliyev eyni zamanda ədəbiyyatda, poeziyada milli ahəng yaratmaqla bahəm ümumbəşəri dəyərləri bir müstəviyə gətirmək kimi siyasi prizmadan çıxış edirdi. Çünki bilirdi, hamını bir yerə toplayan bir ünvan var: Ədəbiyyat!

Bu mənada 1980-ci ilin 27-31 oktyabrında "Ədəbiyyatların dostluğu - xalqların dostluğudur" adı ilə keçirilən yazıçıların Ümumittifaq konfransında Heydər Əliyevin bütün dünyanı Bakıya cəm etməsi, onu hamı üçün Vətənə - ədəbi-bədii fikir məbədinə çevirməsi daha bir ali niyyətin göstərisi idi: "Məhz həmin konfransdakı nitqi ilə Heydər Əliyev etnos-millət-bəşəriyyət bağlılığının harmoniyasına yeni istiqamətdə aydınlıq gətirdi. O, sadəcə nitq söyləmədi, şərq-Azərbaycan mədəniyyətinin mədəni dünya üçün nadir sərvət olduğunu, mənəvi missiya daşıdığını qonaqlara məharətlə aşıladı. M.F.Axundovun "Şərq poeması"ndan, Səməd Vurğunun "Zamanın bayraqdarı" əsərindən parçalar söylədi - həm azərbaycanca, həm də rusca.  Vyaçeslav Sukaçev, Aleksandr Smerdov, Vasili Bıkov, Aqniya Barto, Zoya Kedrina, kubalı və hindistanlı qonaqlar salondakı təntənəli sükutdan, tükənməz alqışlardan heyrətə düşmüşdülər. Yanaşı əyləşdiyim hindistanlı yazıçı Prakaş Bharti çətin danışdığı rus dilində mənə qəribə sual verdi:

-Vaş rukovoditel poet ili prozaik?

Qonaq, ölkə rəhbərinin yazıçı olduğuna tam inanmışdı, indi isə onun hansı janrda yazıb-yaratdığını bilmək istəyirdi.

Heydər Əliyevdən sonra çıxış edən SSRİ Yazıçılar İttifaqının sədri Georgi Markov, daha sonra Rəsul Həmzətov, David Kuqultinov Heydər Əliyevin düşüncə, ümumiləşdirmə və natiqlik mədəniyyətindən fövqəladə məhəbbətlə danışdılar" (İmamverdi Əbilov).

Bu konfrans Azərbaycanın beynəlxalq aləmə çıxışında, dünyaya tanıdılmasında, onunla başqa dövlətlərin arasında, çoxcəhətli elmi-ədəbi, mədəni əlaqələrin inkişafında böyük önəm daşıyırdı.

Heydər Əliyev epoxasında yaşayıb-yaradan şair və yazıçılar birmənalı şəkildə böyük lideri ədəbiyyatın hamisi sayır, Heydər Əliyevin siyasətdən başqa bir də ədəbiyyatlaşan obrazını fakt olaraq etiraf edirdilər:

"Bu imkanı bizə Heydər Əliyev yaratmışdı və onun dəstəyini, yardımını, başqa nəsildaşlarım kimi mən də daima hiss eləmişəm" - bu sözləri Anar 18 may 1998-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Şəxsiyyətin miqyası" adlı məqaləsində yazır.

Elçinin 1995-ci ildə qələmə aldığı "Tarixlə üz-üzə dayanmış adam" məqaləsində oxuyuruq: "...altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin bir qələm sahibi kimi formalaşması yetmişinci illərə təsadüf etdi və bütün bu illərdə Azərbaycan ədəbiyyatı və ümumiyyətlə, Azərbaycan mədəniyyəti ilə bilavasitə Heydər Əliyev arasında mənəvi və mən deyərdim ki, məhrəmanə bir körpü yarandı.

İsmayıl Şıxlının çıxışlarında Heydər Əliyevin ədəbiyyat sevgisinə heyrəti yer alır: "Heydər Əliyev yoldaşın bizə, Azərbaycan yazıçılarına, klassik irsimizə xüsusi qayğı ilə yanaşması, Nizami, Mirzə Şəfi irsinin öyrənilməsinə, Nəsimi, S.Vurğun kimi sənət ustalarımızın geniş yubileylərinin keçirilməsinə xüsusi əhəmiyyət verməsi bizi sevindirməyə bilməz".

Heydər Əliyev bu qayğı və diqqətini elə sovet imperiyasının daxilində - ən yüksək postda əyləşərək, ən əzəmətli kürsüləri bölüşərək, ən mötəbər tribunalardan səslənərək gerçəkləşdirirdi.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başladı. Həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. "Kitabi Dədə Qorqud", böyük Azərbaycan şairi İmadəddin Nəsimi ilə bağlı Heydər Əliyevin gerçəkləşdirdiyi işlər bu abidələrin yeni təfəkkür qatına, milli şüur və yaddaşa bədii-estetik çalar qatmasını izləməyə imkan verir. Həmin vaxta qədər Nəsimi "Divan"ı yalnız bir dəfə, görkəmli ədəbiyyatşünas Salman Mümtaz tərəfindən, 1926-cı ildə ərəb əlifbası ilə çap olunmuşdu.. Heydər Əliyevin sərəncamı əsasında 1973-cü ilin 13 sentyabrında İmadəddin Nəsiminin 600 illik yubileyi keçirildi. Elə həmin il Həmid Araslının tərtibatı ilə Nəsiminin divanı çap olundu. Bütün ölkə Nəsimi əhval-ruhiyyəsində oldu, şairin şəkli həmin dövrdə çap olunan bütün ölkə qəzetlərinin loqosuna çevrildi. Şairin əsərləri ingilis və fransız dillərinə tərcümə edildi, haqqında xarici ölkələrin və beynəlxalq təşkilatların mətbuat orqanlarında bir neçə məqalə çap olundu. YUNESKO-nun "Kuryer" jurnalında Nəsimi haqqında məqalə dərc edildi. Heydər Əliyev Nəsiminin yubileyinin təkcə Bakıda deyil, Moskvada da keçirilməsinə nail oldu. 1980-ci ilin fevral ayında Bakının mərkəzi parklarından birində Nəsiminin abidəsi qoyuldu və heykəlin açılış mərasimində şəxsən özü iştirak etdi. Beləcə sovet ideologiyasının birbaşa marağında olduğu Nəsimini milli ədəbi-tarixi yaddaşdan çıxdaş etmək niyyətinin qarşısı böyük siyasətçi tərəfindən alındı.

Böyük Azərbaycan şairi  Nizami Gəncəvinin irsinə də Heydər Əliyev münasibəti konseptual səciyyə daşıyırdı. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Bu məqamla bağlı X.R.Ulutürkün "Gündəliy"ində əhəmiyyətli bir epizod yer alır: "Xəmsə" yaradıcısının anadan olmasının 840 illiyi bayramı keçiriləndə böyük qazax şairi Oljas Süleymenovun verdiyi sual yadımdadır:

-Ustad, axı 840 yuvarlaq rəqəm deyil, niyə tələsirsiniz?

-Tələsməyimiz əbəs deyil. Biz Nizami ilə bəşəriyyəti qovuşdurmağa tələsirik. Nizami elə bir sənətkardır, elə bir dahidir ki, hər il bayramını keçirməyə dəyər".

Yaxud 1982-ci ilin 15 yanvarında Şuşada M.P.Vaqif məqbərəsinin açılışı Heydər Əliyev üçün əbədiləşən tarixi yaddaş baxımından əhəmiyyətli idi.

Heydər Əliyevin üzərinə düşən missiya çətin idi. O, fəaliyyətinə qırılmış xəttin, güdaza verilmiş dəyərlərin, itirilən meyarların bərpası kontekstində başladı. "Dissident siyasəti"! Heydər Əliyevin 1969-1982-ci illər ərzindəki fəaliyyətini bu iki sözün birləşməsi uğurlu və dəqiq ifadə edir. Azərbaycanın dəyərlərini ona tanıtdırmaq və 1937-ci ildə ziyalılığın sındırılmış vüqarını dirçəltmək, reabilitasiya etmək Heydər Əliyev diplomatiyasının çıxış nöqtəsini təşkil etmişdir.

Hakimiyyətinin birinci dönəmində Heydər Əliyevin irəli sürdüyü nəzəri-ideoloji prinsiplərin şairlərin yaradıcılığına bilavasitə təsiri olmuşdur. Şairlər, yaradıcı adamlarla tez-tez görüşən Heydər Əliyevin onlarla ünsiyyət zamanı səsləndirdiyi hər hansı fikirlər şairlər üçün enerji və güc mənbəyinə çevrilmiş, impuls yaradan qüvvə olmuşdur. Məsələn, B.Vahabzadə, X.R.Ulutürk, M.Araz poeziyasının həyəcan, çağırışa köklənən üslubu Heydər Əliyev siyasətinin poeziyaya qazandırdığı cəsarət ruhu üzərində qərar tuturdu. Milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində bu şairlərin böyük rolu olmuşdur. Həmçinin tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması onların fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

Heydər Əliyev yalnız qorumurdu, yalnız himayə etmirdi, yalnız cəsarət aşılamırdı. O, həm də sahib çıxmağı bacarırdı. Gücünün yetdiyi qədər milli-mənəvi dəyərlərin qorunmasına çaba göstərirdi. Bu barədə əlbəttə, kifayət qədər təcrübə və bacarıq sahibi idi, amma onlarla bahəm (və daha əsas!) millətinə və xalqına can yanğısı vardı. Böyük şairimiz Məhəmməd Füzuli ilə bağlı Heydər Əliyevin qatlaşdığı çətinliklər və onun bu istiqamətdə əzmkar fəaliyyəti fikirlərimizə əyani sübutdur...

Heydər Əliyev siyasətinin dissident ruhu 1982-ci ildə daha bir gözlənilməz hadisə ilə nəhayətsiz miqyas aldı. Böyük Azərbaycan şairi Hüseyn Cavidin nəşinin Sibir çöllərindən Vətənə gətirilməsi haqda sərəncam verdi Heydər Əliyev. Bu hadisəni Heydər Əliyevin siyasi fəaliyyətinin şah əsəri saymaq olar. Axı söhbət 1937-ci ilin repressiya dalğasının güdaza verdiyi faciə qəhrəmanından gedirdi. 1982-ci il, sovet dövrü hələ bitməmişdi, heç buna işarələr belə yox idi...   Heydər Əliyev bu addımı ilə gerçəyi qorxulardan önə çıxartdı, Cavidin nəşini Vətənə qaytarmaqla  elə ilk növbədə, qorxunun üzərindəki örtüyü götürüb atmağa müvəffəq oldu.

Heydər Əliyev - milli ədəbiyyatımızın şərəfli tarixidir, faktıdır, əhəmiyyətli və gərəkli məxəzidir. Bu məxəz bütün estetik ruh halı ilə fərqli duyumun, fərqli yaşamın şəklidi.

***

1980-ci illər... Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırıldı. Meydanda isə 1970-1980-ci illərin - Heydər Əliyev zamanının reallaşdırdığı gerçəklər sırası vardı. Ölkə və xalq adına görülən nəhayətsiz əməllərin özülünün qoyulduğu mərhələ vardı. Hamının və hər kəsin vurğulayacağı bu gerçəyin üzərinə tarix yenidən qayıdacaqdı. Çünki 1970-1980-ci illər Azərbaycan ədəbiyyatı Heydər Əliyevin müəyyənləşdirdiyi əxlaqi-milli-mədəni aktın  ilhamçısı və icraçısıdır. Cari prosesin, yazılan əsərlərin, bütöv ədəbi hərəkatın ideya zəmini rolunda çıxış edən aparıcı simadır Heydər Əliyev.

Heydər Əliyevin siyasətini istiqlal sözü ilə bir müstəviyə qoyub elə eyni müstəvidə "İstiqlal poeziyası" deyilən bir təsnifatı dövriyyəyə gətirmək mümkündür. Daha sonra isə milli müstəqillik kimi tarixi nailiyyətimizi. Önəmli faktdır ki, 1995-ci ildə Heydər Əliyevin sərəncamı ilə ilk dəfə olaraq "İstiqlal" ordeni təsis olunur və bu ordenə üç şair - Xəlil Rza Ulutürk (ölümündən sonra), Məmməd Araz, Bəxtiyar Vahabzadə layiq görülür.

1990-cı illərdə də Heydər Əliyevin siyasətçi kimi gücü əvvəlki inadla millətin yaddaş kultuna sədaqətinin bərpa edilməsi məsələsinə həssas yanaşmasındaydı. Dahi şairimiz Məhəmməd Füzulinin 500, Mirzə Cəlilin 128, ilk möhtəşəm söz abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin elmi ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə keçirilməsi ədəbi irsə layiqli münasibətin izharına ən yaxşı nümunə olmaqla yanaşı, dövlət başçısının hansı məsələlərdə dəstək aradığını, mənəvi ülfət tapdığını bəlli edirdi.

Məhəmməd Füzulinin bütün əsərləri (külliyyatı) altı cilddə nəşr edildi. Haqqında sanballı elmi monoqrafiyalar, tədqiqat əsərləri ortaya qoyuldu. Yubileyi həm Azərbaycanda, həm  bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirildi.

Yaradıcılıq aləminə yeni istedadlı müəlliflərin gəlməsində rol oynayan, sonradan maddi çatışmazlıqlar ucbatından uzun fasilələrlə işıq üzü görən, hətta bağlanmaq təhlükəsi ilə üz-üzə duran ədəbi orqanların: "Azərbaycan", "Literaturnı Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının və "Ədəbiyyat qəzeti"nin ölkə prezidentinin xüsusi qərarı ilə müntəzəm surətdə ölkənin dövlət büdcəsindən maliyyələşdirilməsi ədəbi prosesin gəlişməsində əsaslı rol oynadı.

Heydər Əliyevə həsr olunan bütün mətnlərdə eyni obrazla qarşılaşırıq: xilaskar, mətin, dahi insan, millət və xalq fədaisi, bütün varlığı ilə dövlətinə bağlı olan şəxsiyyət  və s. və i.a.  Bu obrazı Heydər Əliyev özü öz ömür bioqrafiyası ilə yaratmışdır. Ona görə hansı rakursdan yanaşılsa, hansı səviyyədə bədii təcəssümün predmetinə çevrilsə belə sonda gözlərimiz önündə böyük əqidə və amal daşıyıcısı olan eyni Obraz canlanır. Tərcümeyi-halını məsləkinin ifadəsinə çevirmiş Heydər Əliyev obrazı...

Heydər Əliyevə həsr olunan bütün əsərlər, əslində, bir məqama israrlıdır: Heydər Əliyev tarixdə qalıcı şəxsiyyətdir. Öyünə biləcəyimiz TƏKlərdəndir!

***

Biz ümummilli liderin vətən, yurd, xalq adına gördüyü nəhayətsiz əməllərdən bəhs etdik. Amma Heydər Əliyevin ən dəyərli əsərlərindən biri Azərbaycan Prezidenti İlham Əliyevdir. Heydər Əliyevin uğurlu siyasi kursunun bariz örnəyi!

Bu gün Heydər Əliyev həm də İlham Əliyevin simasında yaşayır, əbədi davam edən tarixə çevrilir. Təsadüfi deyil ki, çağdaş dövrümüzdə İlham Əliyevə həsr olunan əsərlər ilkin olaraq Heydər Əliyev obrazını içindən keçirməli olurlar:

*Ulu öndər özü kimi inandığı bir varisə*
*Güvənərək, bir inamla demədimi*
*illər qabaq:*
*"Azərbaycan günəş kimi*
*Yer üzünə saçılacaq!"*
*Odlar yurdu, nur saçırsan,*
*qaranlıqlar gendən keçir,*
*Avropanın gələcəyə addımları səndən keçir!*

*Arzu Əsədov*

***

Heydər Əliyev həm də sözümüzün "yaddaş sirri"dir. O, dövlətin rəmzinə çevrilmiş ilk siyasi lider oldu və kifayət qədər ibrətamizdir ki, belə bir hadisə Azərbaycan tarixində ilk dəfəydi ki, baş verirdi. Belə hadisələri isə tarix sonradan təshih etmir. Çünki yüzillər keçəndən sonra tarix daha çox həqiqətin dilində danışır. Heydər Əliyev Azərbaycanın siyasət dilini dünyaya təlim edən ilk azərbaycanlı oldu. Bu mənada, yüzillər keçəndən sonra da tarix Azərbaycan barədə qurucunun, baninin, ümummilli liderin, yəni Heydər Əliyevin üslubunda danışacaq.



***Elnarə AKİMOVA***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

# Mükəmməl insan obrazı

## Heydər Əliyev olduğu kimi

### Dr. Aysel Sadak İLTAŞ-ın "İnsan yüregi ile Haydar baba" kitabı haqqında qısa düşüncələr




Heydər Əliyev barəsində sağlığında və ölümündən sonra çoxlu sayda kitablar qələmə alınıb, unudulmaz xatirəsinə mahnılar, şeirlər ithaf olunub, filmlər çəkilib. Bu sənət əsərlərində Heydər Əliyev oxucuya, tamaşaçıya, dinləyiciyə əsasən siyasətçi obrazında təqdim edilib. Onun barəsində yazılan və 2024-cü ildə Ankarada nəfis tərtibatla çap olunan daha bir kitab isə "İnsan yüregi ile Haydar baba" adlanır. Kitab Dr. Aysel Sadak İLTAŞ tərəfindən ərsəyə gətirilərək oxuculara təqdim olunub.

Kitabda müəllifin, Azərbaycan və Türkiyədən olan tanınmış ictimai-siyasi xadimlərin Heydər Əliyev barəsində xatirələrinə yer verilib. Heydər Əliyevin heç bir çərçivəyə sığmayan şəxsiyyəti və müəllifin qəhrəmanını təmtəraqlı deyil, xalqa, sadə insanlara yaxın obrazda təqdim etməsi kitabın oxucu cəlbediciliyini artırır. Kitabı mütaliə edən oxucu onu birnəfəsə oxuyur və bu zaman onun gözləri önündə mavi ekranlardan, tribunalardan, müxtəlif yığıncaqlardan, tədbirlərdən adətən ciddi və nüfuzedici görkəmdə tanıdığı Heydər Əliyevin xarakterinin insanlıq tərəfləri də canlanır.

Bəli, Heydər Əliyev böyük siyasətçi idi, dövlət, xalq, milli maraqlar naminə həmişə zəruri olan qərarlar verirdi, müxtəlif məsələlərlə əlaqədar strateji baxışlar və yanaşmalar ortaya qoyurdu. Müəlliflə həmsöhbət olanların xatirələrində Heydər Əliyevin bir siyasət nəhəngi olduğu, Azərbaycanın keçmişi, bu günü və gələcəyi üçün müstəsna xidmətlər göstərdiyi oxucunun diqqətinə çatdırılır. Bununla bərabər, geniş oxucu kütləsinin mühakiməsinə verilən xatirələrdə həm də Heydər Əliyev xarakterinin insanlıq, mənəviyyat tərəfinə diqqət çəkilir. Xatirələrini bölüşən insanlar həyəcansız danışa bilmirlər. Heydər Əliyev baş tutan hər təmasda onları sözün yaxşı mənasında təəccübləndirib. İnsanlar Heydər Əliyevlə görüşə gələndə narahatlıq keçiriblər, özlərini çərçivəyə salmağa çalışıblar, çox danışmağa cəsarət etməyiblər. Ancaq siyasət nəhəngi olan Heydər Əliyev həm də insan sərrafı idi. Kitabda bölüşülən xatirələrdən də görünür ki, o, həmsöhbət olduğu insanların qəlbini üz cizgilərindən, baxışlarından, davranışlarından oxuyub. Reaksiyası da adekvat olub. Qarşısındakının sevincinə şərik çıxıb, səmimqəlbdən təbriklərini çatdırıb, hədiyyələrini verməyi də yaddan çıxarmayıb. Eyni zamanda, müsahibinin kədərinə də biganə qalmayıb, həmən təsəlli verib, nə ilə kömək edə biləcəyini soruşub. Siyasət, şöhrət zirvəsinə yüksələn Heydər Əliyev və son dərəcə səmimi, duyğulu, həssas, sadə bir insan! Bu portretdəki təzadlı ştrixlər heyrət doğurur. Öz-özünə sual edirsən: Bir insanda bu qədər fərqli cəhətlər necə biləşə və unikal vəhdət yarada bilər? Heydər Əliyevi bir siyasətçi kimi digərlərindən fərqləndirən, onu insanların, xalqın sevimlisinə çevirən əsas məqam da elə budur. Heydər Əliyevə xas olan bu təkrarsız ştrixlərə ahəngdar keçidlərlə vurğu etməsi, bununla da dahi siyasətçinin mükəmməl insan obrazını yaratması müəllifin yüksək peşəşarlığının, müşahidələrinin, ümumiləşdirmə qabiliyyətinin bəhrəsidir.

Və əbəttə ki, Dr. Aysel Sadak İLTAŞ-ın Heydər Əliyev şəxiyyətinə olan olan böyük hörmət və sevgi kitabın əsas məziyyətidir. Bu qırmızı xətt kitabın hər sətrindən keçir. Deyə bilərik ki, əgər müəllifin Heydər Əliyevə bu qədər səmimi münasibəti olmasaydı, kitab belə uğurlu alınmazdı. Ən duyğulu məqam isə ondan ibarətdir ki, müəllif böyük zəhmət hesabına ərsəyə gətirdiyi və Heydər Əliyevin xatirələrdə anıldığı kitabını valideynlərinə - atası Şirzat Turan Sadaka və anası Pəri Sadaka ithaf edib. Buradan o məna hasil olur ki, müəllif üçün Heydər Əliyevin xatirəsi ona ata-anasının xatirəsi qədər əzizdir. Və əlavə şərhə ehtiyac yoxdur...

**MÜBARİZ**

# "Müdrik siyasət, tarixi uzaqgörənlik, Böyük Qayıdış: Qarabağda və Şərqi Zəngəzurda quruculuq-bərpa prosesi"







Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar dekabrın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müdrik siyasət, tarixi uzaqgörənlik, Böyük Qayıdış: Qarabağda və Şərqi Zəngəzurda quruculuq-bərpa prosesi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Xətai rayonu ərazisində yerləşən abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

YAP Xətai rayon təşkilatında keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, müasir Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir: "Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Uğurlarımızın zirvəsində isə Qarabağ Zəfəri dayanır. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə nəhəng quruculuq işləri həyata keçirilməkdədir".

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəm dövlətçilik tariximizdə mühüm yer tutur: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli Lider Heydər Əliyevin müasir müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq təhlükəsi qarşısında olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrildi".

YAP Veteranlar Şurasının sədri diqqətə çatdırıb ki, hazırda Azərbaycan inkişafının ən möhtəşəm dövrünü yaşayır. A.Rəhimzadə qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz qazandığı Qarabağ Zəfəri ilə güclü və qüdrətli dövlət olduğunu bütün dünyaya nümayiş etdirdi: "Müharibənin başa çatmasından sonra erməni işğalından azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması qarşıda dayanan başlıca vəzifələrdəndir. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Bölgənin dirçəldilməsi ümumilikdə ölkəmizin inkişafına və insanların rifah halının daha da yaxşılaşdırılmasına öz töhfəsini verəcək".

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev çıxışında Azərbaycanın inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz rolundan danışıb. O qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qüdrətli dövlətə çevrilib. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri də bu reallığı təsdiqləyir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə bildirib ki, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin adı tariximizə əbədi həkk olunub. Onun sözlərinə görə, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə böyük quruculuq işləri sistemli şəkildə həyata keçirilir. Bərpa işlərində milli memarlıq üslubu ilə yanaşı, yeni yanaşmalar tətbiq olunur.

YAP Veteranlar Şurasının üzvü hər bir ölkənin uğurlu gələcəyinin gənclərdən asılı olduğunu deyib: "Ona görə də Azərbaycan gəncliyi müstəqil dövlətimizi qorumaq, daha da inkişaf etdirmək üçün yüksək biliklərə yiyələnməli, layiqli vətəndaş kimi formalaşmalı və milli-mənəvi dəyərlərimizi qorumalıdır".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin Ulu Öndər Heydər Əliyevin Azərbaycanın bu günü və gələcəyi ilə bağlı gördüyü işlərdən bəhs edərək vurğulayıb ki, onun idarəçilik təcrübəsi, siyasi iradəsi, liderlik keyfiyyətləri hər bir çətinliyin öhdəsindən uğurla gəlməsini şərtləndirib: "Bu gün həmin siyasi iradəni Prezident İlham Əliyev nümayiş etdirir. 44 günlük İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoymaq Prezident İlham Əliyevin qətiyyətinin, Azərbaycan Ordusunun gücünün və qüdrətinin nəticəsidir".

Çıxış edən Milli Məclisin deputatı Vüqar Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətinin bütün dövrlərində Azərbaycanın inkişafı üçün çalışıb: "Bugünkü müasir, müstəqil Azərbaycan Heydər Əliyevin adı ilə bağlıdır".

O qeyd edib ki, bu gün Azərbaycan dövləti Ulu Öndərin ideyaları əsasında inamla inkişaf edir. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərinin böyük sürətlə davam etdiyini deyən deputat qeyd edib ki, qarşıdakı dövrdə Böyük Qayıdış Proqramının tam icra olunması, ordumuzun daha da gücləndirilməsi əsas vəzifələr sırasındadır. "Prezident İlham Əliyev bu istiqamətdə uğurlu siyasət həyata keçirir. Bütövlükdə, qazanılan nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsidir. Bizim vəzifəmiz görülən işlərə, inkişaf siyasətinə dəstək olmaqdır" ,- deyə V.Rəhimzadə vurğulayıb.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva çıxışında Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısından bəhs edib. Onun sözlərinə görə, bu qayğının nəticəsində Azərbaycan gəncliyi yüksək bilik və bacarıqlara yiyələnib. Prezident İlham Əliyevin siyasətində də bu amil əsas yer tutur. "Yüksək vətənpərvərlik ruhuna sahib olan gənclərimiz torpaqlarımızın erməni işğalından azad edilməsində qəhrəmanlıq dastanı yazdılar. Gənclərimiz bu gün Qarabağdakı quruculuq işlərində də fəal iştirak edirlər" ,-deyə deputat qeyd edib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin İşğaldan azad olunmuş ərazilərdə layihələrin idarə edilməsi şöbəsinin müdiri Ramil Cahangirov işğaldan azad olunmuş ərazilərdə görülən işlər haqqında məlumat verib. O qeyd edib ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdış həm məzmununa, həm də miqyasına görə dünya praktikasında alternativi olmayan bir yenidənqurma təcrübəsidir.

R.Hüseynovun sözlərinə görə, ötən dövr ərzində işğaldan azad olunmuş ərazilərin ümumi planı ilə yanaşı, 8 şəhərin baş planının hazırlanması üzrə işlər tamamlanıb, bundan əlavə 90-a yaxın kənd və qəsəbədə ərazi planlaşdırılması işləri icra edilib: "Bugünədək 30-dan çox yaşayış məntəqəsində tikinti işlərinə start verilib. Şəhər, kənd və qəsəbələrdə müfəssəl planlaşdırma normalarına və müasir şəhərsalma prinsiplərinə uyğun olaraq yeni yaşayış infrastrukturu, sosial təyinatlı obyektlər, ictimai məkanlar yaradılır. Yaşıllıqların qorunması və artırılması, yeni açıq ictimai məkanların təqdim edilməsi nəticəsində Qarabağ və Şərqi Zəngəzurun bütün şəhərləri "yaşıl şəhər" prinsiplərinə uyğun yenidən qurulur. Eyni zamanda, bugünədək işğaldan azad edilmiş ərazilərdə 168 min hektara qədər sahə minalardan təmizlənib. Təmizlənmiş ərazilərin 21 min 500 hektarı yaşayış məntəqələrinin payına düşür".

O qeyd edib ki, hazırda Qarabağ iqtisadi rayonu üzrə daha 4 şəhərin baş planı işlənilir: "Təkcə qarşıdakı 2 ildə 50-yə yaxın kənd və qəsəbənin planlaşdırılması nəzərdə tutulur".

YAP Veteranlar Şurasının üzvü Adilə Abasova isə çıxışında Ümummilli Lider Heydər Əliyevin ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. O bildirib ki, Heydər Əliyev tarix yazan dahi şəxsiyyətdir: "Ulu Öndər bütün varlığı ilə xalqını, Vətənini sevirdi, doğma Azərbaycanın yüksəlməsi üçün var qüvvəsi ilə çalışırdı. Heydər Əliyevin həyat və fəaliyyəti bir tarixdir".

Çıxış edən Vətən Müharibə Qəhrəmanı Zaur Hüseynov Ulu Öndər Heydər Əliyevin gənc nəslin vətənpərvərlik ruhunda yetişməsi üçün xidmətlərindən bəhs edib. O deyib ki, hələ sovetlər dönəmində C.Naxçıvanski adına hərbi məktəbin yaradılması bu baxımdan çox mühüm əhəmiyyətə malikdir. Bildirib ki, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində güclü Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi.

Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# Əməkdaşlığın yeni gündəliyi

## Serbiya Azərbaycanla təmiz enerji layihələrinə hazırlaşır

**İqtisadiyyat naziri Mikayıl Cabbarov ilə Serbiya Baş nazirinin birinci müavini Sinişa Mali ilə keçirilən videokonfrans formatında görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, o cümlədən energetika sektorunda birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib. Azərbaycanın Avropanın və Serbiyanın enerji təhlükəsizliyinə verdiyi töhfəni yüksək dəyərləndirən Sinişa Mali bunu qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslandığını vurğulayıb. Bildirilib ki, Azərbaycan və Serbiya arasında imzalanmış müqavilə və sənədlər müasir əməkdaşlıq gündəliyinin genişlənməsinə və potensialların reallaşdırılmasına, o cümlədən enerji sektorunda dayanıqlı təminatlara möhkəm hüquq baza yaradır.**

### Azərbaycan qazı hesabına...

Qeyd edək ki, Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizi koalisiyasında yer alan Avropa İttifaqı (Aİ) ölkələrindən biri kimi Serbiya ilə sıx əməkdaşlıq 2 ilə yaxındır ki, müsbət dinamika üzrə davam etməkdədir. Ölkəmizin enerji tədarükü şaxəsinə qoşulan Serbiya maye yanacaqla təchiz edilən 12-lik ölkələri sırasında ilk yerlərdən birini tutur. 2023-cü ildə Azərbaycanın Energetika Nazirliyi ilə Serbiyanın Mədənçilik və Energetika Nazirliyi, eləcə də SOCAR və "Srbijagas" arasında əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu və qaz satışına dair Müqavilə imzalanıb. Həmin sənədlərin icrası ötən ildən təmin edilməyə başlayıb və Bolqarıstan-Serbiya İnterkonnektoru vasitəsilə Serbiyaya çatdırılması mümkün olub. Ölkəmiz Serbiyaya ilk mərhələdə illik 400 milyon kub metr qaz tədarük etsə də, nəql həcmləri artıqca yanacağın təchizatının da çoxaldılması nəzərdə tutulur. Gələcəkdə qaz tədarükünü 1 milyard kub metrə çatdırılması ilə bağlı razılaşmalar əldə edilib.




### Serbiya da "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nə qoşulmaq istəyir

Serbiya Azərbaycanın Avropada qaz bazarını şaxələndirməsində yeni tərəfdaşıdır. Belə ki, yanacağın Balkan regionuna nəqli üçün yaradılan yeni infrastrukturların və müasirləşdirilən konnektorların əlaqələndirilməsi, bir-birinə inteqrasiyasında rəsmi Belqrad xüsusi iradə göstərir. Bu səylərin nəticəsində Azərbaycan qazının digər Balkan ölkələrinə də çatdırılması mümkün olacaq. Belə ki, Azərbaycan qazının ötürücü innektorlar vasitəsilə Bosniya-Hersoqevina və Monteneqroya çatdırılması da nəzərdə tutulur. Bu isə Azərbaycanın etibarlı enerji tərəfdaşı missiyasının genişlənməsinin və enerji təhlükəsizliyində rolunun getdikcə artmasının bariz göstəricisidir.

**Ölkəmiz Serbiyaya ilk mərhələdə illik 400 milyon kub metr qaz tədarük etsə də, nəql həcmləri artıqca yanacağın təchizatının da çoxaldılması nəzərdə tutulur. Gələcəkdə qaz tədarükünün 1 milyard kub metrə çatdırılması ilə bağlı razılaşmalar əldə edilib**

Serbiya ənənəvi yanacaq tədarükü ilə yanaşı, Azərbaycanın bərpaolunan enerji mənbələrinin tədarükündə də maraqlı tərəf kimi fəallıq nümayiş etdirir. Serbiyanın mədənçilik və energetika naziri Dubravka Handanoviç bildirib ki, enerji tərəfdaşlığının müasir trendi olan "yaşıl enerji" sahəsində əlaqələrin qurulması Belqrad hökumətinin prioritetlərindən biridir. O, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin həyata keçirilməsinə xüsusi maraq göstərdiklərini və həmin dəhliz vasitəsilə nəql olunacaq Azərbaycanın "yaşıl enerji" ehtiyatlarının əldə edilməsinə maraqlarını ifadə edib.

**Serbiya ənənəvi yanacaq tədarükü ilə yanaşı, Azərbaycanın bərpaolunan enerji mənbələrinin tədarükündə də maraqlı tərəf kimi fəallıq nümayiş etdirir**

### COP29 sammitində əldə edilmiş anlaşma

Hər iki ölkənin hökumət üzvlərinin və enerji şirkətlərinin nümayəndələrinin COP29 sammiti çərçivəsində keçirilən görüşləri zamanı da müzakirələr sırasında əsas prioritet alternativ enerji proqramında birgə əməkdaşlığın qurulması ilə bağlı olub. Tərəflər arasında əldə edilmiş anlaşmaya əsasən, bərpaolunan enerjinin və "yaşıl hidrogen"in istehsalı və ötütrülməsi, gələcəkdə mayeləşdirilmiş təbii qaz (LNG) ixracı üçün xüsusi infrastruktur bazasının qurulması, SOCAR-ın Serbiyada qaz elektrik stansiyasının tikintisində iştirakı məqsədilə qarşılıqlı investisiya imkanlarının səfərbər olunması nəzərdə tutulur. Həmçinin, "yaşıl texnologiya"ların tətbiqi, karbon emissiyası, utilizasiya, elektromobillik, təmiz enerji saxlancı infrastrukturu və "yaşıl maliyyə"ləşdirmə istiqamətlərində əməkdaşlıq həyata keçiriləcək.

Bütün bunlar Azərbaycanın bərpaolunan enerji resurslarını tədarük etməklə yanaşı, Serbiyanın enerji təchizatının şaxələnməsi və təmiz enerjiyə keçidinə, "yaşıl iqtisadiyyat" quruculuğuna töhfə verməsinə səbəb olacaq.

**Tərəflər arasında əldə edilmiş anlaşmaya əsasən, bərpaolunan enerjinin və "yaşıl hidrogen"in istehsalı və ötütrülməsi, gələcəkdə mayeləşdirilmiş təbii qaz (LNG) ixracı üçün xüsusi infrastruktur bazasının qurulması, SOCAR-ın Serbiyada qaz elektrik stansiyasının tikintisində iştirakı məqsədilə qarşılıqlı investisiya imkanlarının səfərbər olunması nəzərdə tutulur**

*E.CƏFƏRLİ*

# Təyyarə vuruldu...

## Yardıma getmişdi, xain atəşinə tuş gəldi

**Rüstəm Məmmədov, Eyyub Yusifov, Məmməd Şabanov, Sərdar Rəhimov, Möhsüm Quliyev, Bəhram Babaxanov və digərləri. Bunlar 1988-ci il dekabrın 7-də Ermənistanda episentri Spitak şəhəri olmaqla baş verən 7 bal gücündə zəlzələnin fəsadlarının aradan qaldırılmasına kömək məqsədilə Azərbaycandan göndərilən və Ermənistan səmasında xaincəsinə vurulan İL-76 təyyarəsinin göyərtəsində həlak olan soydaşlarımızın adlarıdır. Təyyarəmiz Ermənistan səmasında xain atəşə tarixin bu günündə - dekabrın 12-də tuş gəlib.**

### Azərbaycanın humanizm jesti

İndiyədək dünyanın ayrı-ayrı ölkələrində dağıdıcı zəlzələlər baş verib. Bu təbiət hadisələri zamanı çoxlu sayda insan həyatını itirib, bütöv şəhərlər, kəndlər Yer üzündən silinib.1988-ci il dekabrın 7-də Ermənistanda baş verən zəlzələnin fəsadları da ağır idi. Avtoşokları sonrakı günlərdə də davam edən zəlzələ zamanı 25 mindən artıq adam həlak olmuş, 170 min nəfər isə xəsarət almışdı. Dəhşətli faciədir. Ancaq həmin faciə ilə bağlı ən dəhşətli və qandonduran məqam isə çətinliyə düşən insanlara köməyə gələn Azərbaycan təyyarəsinin Ermənistan səmasında xaincəsinə vurulması oldu...

Qeyd etdiyimiz kimi, zəlzələ hələlik insan oğlunun qarşısında aciz qaldığı faciədir. Faciə isə elə bir anlayışdır ki, bu zaman hamı milli-etnik-dini kimliyini unudur, hər kəsin qəlbində məhz insanlıq naminə bir həmrəylik hissi baş qaldırır. Spitak zəlzələsinin xəbəri gələndə də Azərbaycan cəmiyyətinə dərin narahatlıq hissi yaşandı, insanlar xalqımızın ənənələrinə, milli-mənəvi dəyərlərinə uyğun qaydada kömək göstərmək barədə düşündülər. Təbii ki, Azərbaycanın rəhbərliyi də zəlzələnin fəsadlarının aradan qaldırılmasında iştirakla bağlı qərar qəbul etdi. Bu, könüllü, cəmiyyətin sosial sifarişi nəzərə alınmaqla verilən bir qərar idi. Beləliklə, Azərbaycandan göndərilən İL-76 təyyarəsi göyərtəsində olan geniş heyətlə Ermənistana uçdu. Bu, Azərbaycan tərəfindən sərgilənən bir humanizm jesti idi.




### Ermənistanın məkri



**Dekabrın 12-də Azərbaycandan könüllüləri Spitaka aparan İL-76 təyyarəsi Ermənistan səmasında xaincəsinə vuruldu. 69 sərnişin və 10 heyət üzvü arasında yalnız təsadüfdən təyyarənin qanad hissəsindəki yük maşınında olan Fəxrəddin Balayev sağ qalmışdı. Vurulan təyyarənin göyərtəsində 50 azərbaycanlı, 13 ləzgi, 11 rus, 2 tatar, 1 erməni və 1 yəhudi olub. Onların hamısı qəzanın nəticələrini aradan qaldırmaq məqsədilə Gümrüyə göndərilmişdilər**

Erməni məkri barədə çox yazılıb, çox deyilib. Ermənistan cəmiyyətinə xüsusilə də azərbaycanlılara qarşı nifrət hissi hakimdir. Spitak zəlzələsinin qurbanlarına köməyə tələsən azərbaycanlılar səmada, təyyarə göyərtəsində məhz erməni məkrinə tuş gəldilər. Belə ki, bu dəfə də Ermənistan öz xislətinə uyğun davrandı. Dekabrın 12-də Azərbaycandan könüllüləri Spitaka aparan İL-76 təyyarəsi Ermənistan səmasında xaincəsinə vuruldu. 69 sərnişin və 10 heyət üzvü arasında yalnız təsadüfdən təyyarənin qanad hissəsindəki yük maşınında olan Fəxrəddin Balayev sağ qalmışdı. Vurulan təyyarənin göyərtəsində 50 azərbaycanlı, 13 ləzgi, 11 rus, 2 tatar, 1 erməni və 1 yəhudi olub. Onların hamısı qəzanın nəticələrini aradan qaldırmaq məqsədilə Gümrüyə göndərilmişdilər.

Qəzanın səbəbləri öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin "qara qutu"su məhv edilib. Bu terror aktı sıradan bir qəza hadisəsi kimi cəmiyyətə sırınıb. Təsadüfən sağ qalmış Fəxrəddin Babayev İrəvan xəstəxanasına aparılsa da, "ermənilər arasında yaralı türkə yer yoxdur" deyən daşnak xislətli erməni həkimləri onu müalicə etməkdən boyun qaçırıblar. Sonradan 1994-cü ildə Prezident Heydər Əliyevin müvafiq sərəncamı ilə terror aktı zamanı həyatını itirən 78 nəfərə şəhid statusu verilib.

Burada istər-istəməz ermənilərin özləri barədə miflər uydurmaları yada düşür. Onlar dünyanın hansı nöqtəsində olsalar da, özlərini "mədəni xalq" kimi təqdim edirlər. Ancaq biz indiyədək ermənilərin "mədəni xalq" olduqlarını təsdiqləyəcək hansısa bir fakta rast gəlməmişik. Zəlzələnin fəsadları ilə üzləşən insanlara köməyə tələsən azərbaycanlı könüllülərin təyyarənin göyərtəsində məhz milli kimliklərinə görə terror aktı ilə məhv edilməsi ermənilərin necə "mədəni xalq" olduğunu otaya qoyur. Erməni toplumu ilə "mədəni xalq", "sivil cəmiyyət" anlayışları arasında kəskin ziddiyyət var və məlum terror hadisəsi də bunu bir daha təsdiqlədi. Faciə ilə üzləşən ermənilər həmin çətin günlərdə də azərbaycanılara olan nifrətlərini unutmadılar və təyyarəmizi vurmağı özlərinə fürsət kimi dəyərləndirdilər.

*Mübariz FEYİZLİ*

# "Yaşıl enerji"də rekordlar davam edir

## Azərbaycan 2035-ci ildə 4 Gvt gücündə enerji ixracına hazırlaşır

Azərbaycanın müasir enerji gündəliyində prioritet yer tutan "yaşıl enerji"yə keçid siyasəti öz mühüm uğurları ilə müşayiət olunmaqdadır. "Yaşıl enerji" konsepsiyasına əsasən, 2030-cu ilə qədər iki beşillik plan müəyyən edilib. Birinci mərhələni əhatə edən 2022-2026-cı illərə dair strategiya sənədi çərçivəsində enerji istehsalı gözləniləndən də ümidverici olub. Energetika nazirinin müavini Elnur Soltanov mediaya açıqlamasında bildirib ki, bütün elektrik enerjisi üzrə qoyuluş gücün həcmi hazırda 8 min MVt-dan artıqdır. Həmin güc bazası növbəti beşillik fazada daha da artacaq və 2030-cu ilə qədər ümumi enerji balansı gücündə "yaşıl enerji"nin payı 30 faizə çatdırılacaq.

### 10 ayda 3,4 milyard kilovat-saat "yaşıl enerji" istehsalı

Qeyd edək ki, 2024-cü il başlayandan hər rübdə "yaşıl enerji" istehsalında əhəmiyyətli artımlar qeydə alınır və ötən ilin 10 ayı ilə müqayisədə 2024-cü ilin yanvar-oktyabr aylarında bərpaolunan enerji istehsalı 80 faizdən çox artıb. Belə ki, qeyd edilən dövrdə ölkəmizdə 3,4 milyard kVt·st "yaşıl enerji" istehsal olunub ki, bu, 2023-cü ilin yanvar-oktyabr aylarına nisbətən 1,5 milyard kVt·st çoxdur. Bərpaolunan enerji portfelində su elektrik stansiyalarının (SES) payı daha xüsusi üstünlük təşkil edir. SES-lər tərəfindən 2,6 milyard kVt·st-a yaxın enerji istehsal olunub ki, bu son illərin ən yüksək göstəricisidir. Külək elektrik stansiyalarında 44,8 milyon kVt·st, günəş elektrik stansiyalarında 515,3 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 192,2 milyon kVt·st elektrik enerjisi istehsal edilib.

Hazırda "yaşıl enerji"nin payı ölkə üzrə ümumi enerji balansında 15 faizə bərabərdir. Hədəf isə bərpaolunan enerjinin payını 2030-cu ilə qədər 2 dəfə artırmaqdır.



**Hökumətin və enerji tədqiqatı üzrə xarici ölkələrin, ələlxüsus da bu sahədə dünya liderlərindən olan Yaponiya şirkətlərinin qiymətləndirmələrinə əsasən, Azərbaycanın "yaşıl enerji" potensialı quruda 135 QVt, dənizdə 157 QVt fərz edilir.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır**

### Maliyyə institutlarının "yaşıl dəstəyi"

Azərbaycanın bərpaolunan enerji sektoruna maliyyə institutlarının, o cümlədən Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) və digər təşkilatların da marağı böyükdür, hazırda bir neçə layihə onların dəstəyi ilə həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. 2 ay əvvəl Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması isə "yaşıl enerji" hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər. Bu, yeni enerji sərmayələrinin açar sazişi kimi digər çoxhəcmli investisiyalar üçün əsaslı zəmin deməkdir. Həmin sərmayə proqramının davamı kimi digər potensial investorlarla daha iritutumlu "yaşıl sərmayələr"in qoyuluşuna dair ilkin razılaşmalar da əldə edilib. Məsələn, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti qarşıdakı illərdə ölkəmizin yaşıl güclərinə 5 milyard dollara yaxın investisiya yatırmaq niyyətini bəyan edib.

### Mövcud real potensial həmin hədəfə çatmağa imkan verəcəkmi?

Mövcud ssenarilər təsdiqləyir ki, Azərbaycanda enerji mənbələri kifayət qədər ümidverici və dayanıqlıdır. Hökumətin və enerji tədqiqatı üzrə xarici ölkələrin, ələlxüsus da bu sahədə dünya liderlərindən olan Yaponiya şirkətlərinin qiymətləndirmələrinə əsasən, Azərbaycanın "yaşıl enerji" potensialı quruda 135 QVt, dənizdə 157 QVt fərz edilir.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə, Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə 10 kiçik SES inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Ümumilikdə, 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurda təmiz "yaşıl enerji" istehsal edəcək su elektrik stansiyalarının sayı 15-i ötəcək. Bu isə bölgədə bərpa olunan təmiz enerjinin gücünün 1 QVt-ı ötməsinə səbəb olacaq.

Həmin mənbələrin istehsalı və tədarükü üçün Azərbaycan hökuməti xarici investorları cəlb edib və 2 ildir ki, birgə sərmayə layihələri icra olunur. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb. Ümumilikdə, Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

### Hədəf 2030-cu ildə 5 milyard Kvt-st-ı ötməkdir

Nəticədə bütün bu sərmayə və maliyyə proqramları sayəsində Azərbaycandakı bərpaolunan enerji mənbələrinin istehsal həcmlərinin 2 dəfədən çox artacağı proqnozlaşdırılır.

Yaxın 6-7 ildə bərpaolunan enerji sitehsalının təxminən 5-6 milyard Kvt-st-a çatacağı proqnozlaşdırılır ki, bu da "yaşıl gücün" 2 dəfədən çox artımı deməkdir.

Beləliklə, bərpaolunan enerji sektorlarının hər bir sahəsindəki güc göstəriciləri tam əminliklə onu deməyə əsas verir ki, 2030-cu ildə "yaşıl enerji" gücünün cəmi enerji istehsalında çəkisini 30 faizə çatdırmaq tam mümkün olacaq. Hətta bu rəqəmin 32-34 faizə yüksəldilməsi belə ehtimal olunur. Bu isə Azərbaycanın "yaşıl enerji" gücünü artırmaqla həm yerli enerji sənayesində alternativ enerji istehlakını təmin etməsinə, həm də "Mərkəzi Asiya -Xəzər-Qara dəniz-Avropa" dəhlizi vasitəsilə Avropaya ixracına imkan verəcək. Ölkəmizin bərpaolunan enerji gücünün 2035-ci ildə hazırkı rəqəmlə nisbətdə 4 dəfəyə yaxın artımı gözlənilir ki, bu da xarici ölkələrə 4 Gvt gücündə "yaşıl enerji" ixracını təmin edəcək.

*ELBRUS CƏFƏRLİ*

# ABŞ-ın "mükafatı"...

## Vaşinqtonun sifarişlərini yerinə yetirən şəbəkə necə "qəhrəmanlaşdırılır"...

Müstəqil xarici və daxili siyasət yürüdən ölkələrə qarşı təzyiq və müdaxilə imkanlarını artırmaq üçün bir çox güclər, xüsusilə ABŞ aktiv şəkildə KİV və QHT sektorundan istifadə edir. ABŞ-ın xarici siyasət kursunun ən mühüm detallarından biri sayılan "nəzarət və təsiretmə" kimi ştrixlər isə hər zaman "demokratiya", "insan hüquq və azadlıqları" adlı "pərdə" arxasında gizlədilir. Təsadüfi deyil ki, ABŞ-ın son illərdə açılan kartlarının hər birinin altından ya gizli xəfiyyə xidməti göstərən KİV nümayəndələri, ya da pulla ələ alınmış QHT üzvləri "boylanır". Çox uzağa getməyək - son aylarda Gürcüstanda baş verənlər bunun əyani sübutudur.

### "Əlaltı media", yoxsa məqsədli "qəhrəman"?

ABŞ-ın sözügedən "agent" siyasəti isə tək Gürcüstanla məhdudlaşmır. Əlinin "çatdığı" və ya "çatmadığı" ölkələrdə bu kimi şəbəkələr yaradan Vaşinqton onları öz maraqları üçün xidmətə "sövq edir", nəhayətində isə onları "qəhrəman" kimi təqdim etməyə çalışır - öz ölkəsinin və xalqının maraqlarını Qərb imperialist mənafeyinə satanlar ABŞ-ın "mükafatlarına" layiq görülürlər.

Bir müddət öncə ifşa edilən bəzi informasiya resurslarının da birmənalı şəkildə Azərbaycana qarşı olan fəaliyyətlərə "yardımçı" olmaq üçün maliyyələşdirildiyi meydana çıxmışdı. Abzas.net şəbəkəsi və ona bənzər şəbəkələr Vaşinqtonun gizli planının tərkib hisssəsi idi. Bu şəbəkələrin formalaşdırılması isə həm informasiya savaşında, həm də siyasi proseslərdə təzyiq vasitəsi kimi istifadə edilməyə hesablanmışdı - onların əli ilə qərəzli və yalan "məlumatlar yayılır", və həmin" lazımi məqamda ABŞ tərəfindən "istinad nöqtəsi" kimi istifadə olunur. Onların maliyyələşməsi də bəlli ünvanlardan edilirdi - məsələn, bu işdə ABŞ Dövlət Departamentinin "arxa bağçası" rolunu oynayan USAID daha çox fərqlənir. Amma bu plan da işləmədi - ABŞ-a xidmətçilik edənlər ifşa edildi, qanuni şəkildə məsuliyyətə cəlb olundular.

ABŞ bu gün həmin "agent şəbəkəsi" üzərindən yeni "oyun qurmağı" planlaşdırır. "Abzas Media"nın rəhbəri, həbsdə olan Sevinc Vaqifqızının ABŞ Dövlət Departamenti tərəfindən "mükafatlandırılması" məhz bu oyunun növbəti ssenarisi sayıla bilər.

### Bayden korrupsiyada ittiham edilir - Dövlət Departamenti bunu niyə araşdırmır?

Təsir və müdaxilə edə bilmədiyi ölkələrə qarşı yalandan şər-böhtan kampaniyası həyata keçirən ABŞ görəsən, güzgüdə niyə özünə baxmır? Əslində, korrupsiya ilə bağlı araşdırmalar ABŞ-ın özündə aparılmalıdlr. Pentaqonda on milyardlarla dollar yeyinti aşkarlanır, amma bu barədə heç kim yazmır, kimsəyə mükafat verilmir. Əvəzində Bayden öz cinayətkar oğlunu azad etdirir. Bu, Bayden administrasiyasının siması olmaqla yanaşı, həm də ayrı-ayrı ölkələrdə hüquq müdafiəçisi adı altında verilən mükafatların əsl mahiyyətini göstərir.

Təsadüfi deyil ki, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp sələfi Co Baydeni Amerika vergi ödəyicilərinin Ukraynaya göndərdiyi vəsaitləri mənimsəməkdə ittiham edib. O, Baydenin iqtisadi kursunun "Bidenomika" adlı məqamlarını vurğulayan bir foto da yayımlayıb. Respublikaçı bildirib ki, "Bidenomiks" belə işləyir: Amerikalılar vergi ödəyir, Bayden onları Ukraynaya göndərir. Ukraynalılar bu vəsaiti Hunter Baydenə köçürür, o, pulu atasına qaytarır, ardınca oğlu üçün əfv qərarı imzalayır.

İrəli sürülən ittihamlara gəldikdə isə, bu haqda, uzun müddətdir ki, məlumatlar yayılır. Bu iddialar əsasən oğul Baydenin Ukraynanın "Burisma Holdings" enerji şirkətindəki fəaliyyəti və atasının ABŞ-ın vitse-prezidenti və sonradan prezidenti olduğu dövrdə xarici əlaqələrdən mümkün suiistifadəsi ilə bağlıdır. 2020-ci ildə Hunter Baydenə aid olduğu iddia edilən bir laptop üzə çıxıb. Bu cihazda onun biznes fəaliyyətləri, atasının adı çəkilən danışıqlar və şəxsi məlumatlar yer alırdı. Respublikaçılar bu laptopun məzmununun potensial korrupsiya göstəricisi olduğunu irəli sürüblər. Beləliklə, Respublikaçılar ABŞ Konqresində Co və Hunter Baydenin fəaliyyətlərinə dair istintaq başladıb. Hunter Bayden özü vergi ödəməmək və qeyri-qanuni silah əldə etmək ittihamları ilə məhkəmə prosesləri ilə üzləşib. Bu ilin dekabrın əvvəlində isə Bayden Hunteri əfv edən fərman imzalayıb.




**ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp sələfi Co Baydeni Amerika vergi ödəyicilərinin Ukraynaya göndərdiyi vəsaitləri mənimsəməkdə ittiham edib. O, Baydenin iqtisadi kursunun "Bidenomika" adlı məqamlarını vurğulayan bir foto da yayımlayıb. Respublikaçı bildirib ki, "Bidenomiks" belə işləyir: Amerikalılar vergi ödəyir, Bayden onları Ukraynaya göndərir. Ukraynalılar bu vəsaiti Hunter Baydenə köçürür, o, pulu atasına qaytarır, ardınca oğlu üçün əfv qərarı imzalayır**

### Daha bir "qalib" - erməni nazir korrupsiya iddialarına necə susub?

Göründüyü kimi, Bayden adminstrasiyası pulla ətrafında "şəbəkə formalaşdırmaqdansa" ölkəsindəki korrupsiya faktların araşdırmalıdır. Amma Bayden administrasiyası müxtəlif ölkələrdə, o cümlədən də Azərbaycanda xəyanətkarları tapıb pul müqabilində əməkdaşlığa cəlb edir, sonra da öz xalqına və dövlətinə qarşı riyakarlığa görə onları mükafatlandırır, qəhrəmanlaşdırır. Əslində Dövlət Departamentinin tərtib etdiyi "qaliblər" siyahısına nəzər yetirdikdə çox şey aşkara çıxır. Məsələn, Sevinc Vaqifqızı ilə birgə bu "mükafatı" Ermənistandan Srbuhi Qalyan alıb. Qalyan 2020-ci il sentyabrın 1-də Ermənistan Respublikası baş prokurorunun müavini təyin edilib. Yerli medianın yazdığına görə, Qalyan prokurorluqda qanunsuz mənşəli əmlakın müsadirəsi sahəsini koordinasiya edib.

Ötən ayın əvvəlində isə Qalyan bu ölkənin ədliyyə naziri təyin edilib. ABŞ-ın "korrupsiyaya qarşı mübarizə" sahəsində qəhrəmanlaşdırdığı Qalyanın nazir müavini olduğu dövrdə ölkədə böyük korrupsiya faktları baş verdi ki, bu haqda erməni mətbuatı davamlı şəkildə yazırdı. Amma Qalyan da daxil olmaqla rəsmi İrəvan bu iddialara nə reaksiya, nə də cavab vermədi. Məsələn, 2020-ci il II Qarabağ müharibəsindən sonra Ermənistanda "Qarabağ Fondu"nun idarə edilməsi ilə bağlı bir sıra korrupsiya iddiaları ortaya çıxdı. Fondda yığılan vəsaitlərin necə istifadə edildiyi ilə bağlı mətbuatda suallar verilirdi. Lakin bu məsələlərə dair ciddi araşdırmalar aparılmadı. Xüsusilə, fondda toplanan yardımların bir hissəsinin şəxsi məqsədlər üçün istifadə edildiyinə dair ittihamlar vardı - amma ədliyyə naziri bu məsələyə reaksiya verməmişdi.

Eynilə müharibə zamanı Ermənistanda toplanan humanitar yardımlar və müharibə sonrası reabilitasiya üçün ayrılan vəsaitlərin çoxunun korrupsiya məqsədləri üçün xərcləndiyi barədə məlumatlar yayıldı. Bu məsələlər barədə də ciddi istintaq aparılmadı və müvafiq şəxslər məsuliyyətə cəlb edilmədi.

Başqa bir iddia isə "Çirkli pulların yuyulması" və mülkiyyət məsələləri ilə bağlı idi. Ermənistanda son illərdə bir neçə yüksək səviyyəli iş adamı və siyasətçiyə qarşı "çirkli pulların yuyulması" və mülkiyyət məsələləri ilə bağlı araşdırmalar aparılması tələb olunsa da, bu məsələlər mətbuatda daha çox müzakirə olunsa da, hakimiyyət tərəfindən bu faktlar dərindən araşdırılmayıb.

Bu siyahını daha da artırmaq olar. Ermənistanda bu korrupsiya məsələlərinin çoxu hələ də mətbuatın gündəmində qalır, amma bu faktlar hələ də lazımi şəkildə araşdırılmayıb və cinayətkarlar cəzalandırılmayıb. Belə olan halda Qalyan hansı "istedadına" görə, ABŞ Dövlət Departamentinin mükafatını alıb? Deməli ki...

*SADİQ*

# İrəvan Əsəd rejiminin ən yaxın müttəfiqi idi

## Hərbi müqavilələr, "Ozanyan batalyonu", separatizmə dəstək, terror zehniyyəti...

Suriyada Bəşər Əsəd rejiminin məğlubiyyəti onun "müttəfiqi" Ermənistanı da çətinə salıb. İllərdir ki, Əsəd rejimi ilə isti və sıx əlaqədə olan Ermənistan işin içindən çıxa bilmir - hələ də, baş verənlərə rəsmi münasibət açıqlaya bilməyən rəsmi İrəvan sirr deyil ki, Yaxın Şərqdəki ən mühüm dəstəklərindən birini itirib.

O da sirr deyil ki, Suriya ilə Ermənistan arasında hər zaman yaxın münasibət olub - Ermənistanın baş naziri Nikol Paşinyan Suriya prezidenti Bəşər Əsədə müxtəlif beynəlxalq və milli bayramlar münasibətilə dəfələrlə təbrik məktubları göndərib. Məsələn, Paşinyan 2021-ci ilin mayında Bəşər Əsədi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edərək iki ölkə arasında dostluq əlaqələrinin dərinləşdirilməsini arzulayıb. Bəşər Əsəd də oxşar jestlər göstərərək Ermənistan-Suriya münasibətlərinə dəstək ifadə edib.

### Əsəd rejimi Ermənistanın iqtisadi ehtiyaclarını təmin edirdi...

Ermənistanın avtoritar rejimlə münasibəti fərqli istiqamətlər üzrə inkişaf edib - bu gün "Qərbə inteqrasiya" yolu adı ilə manipulyasiya edən Paşinyan hökuməti Əsəd rejimi ilə yaxın iqtisadi-siyasi, ticari münasibətlərdə olub. Son illərdə xüsusilə, Suriyadakı erməni icmasının iştirakı ilə bu əlaqələr daha da gücləndirilib. İki ölkə arasında bağlanan müqavilələr isə əsasən tikinti, ərzaq sənayesi və ticarət sektorlarını əhatə edir. Bir neçə dəfə ölkələr arasında birgə iqtisadi forum keçirilib. Əsəd rejimi Ermənistanın iqtisadi ehtiyaclarını təmin etmək məqsədilə ərzaq məhsulları, xüsusən də taxıl və kənd təsərrüfatı məhsullarını Ermənistan bazarlarına yönəldib. Eyni zamanda, Suriya hökuməti Ermənistanın enerji tələbatını qarşılamaq üçün müəyyən miqdarda neft məhsullarını güzəştli şərtlərlə təmin edib - Bu yardımlar İran vasitəsilə tranzit edilib və Ermənistana çatdırılıb.

İki ölkə arasında bir sıra ticarət məhsullarına güzəştli vergi tarifləri tətbiq edilib. Bu, Ermənista- ... nın ... Suriyadan daha ucuz qiymətə mal idxal etməsini mümkün edib. Ermənistan ilə Suriya arasında imzalanan iqtisadi əməkdaşlıq müqavilələri çərçivəsində iki ölkə arasında ticarət dövriyyəsinin artı- ... rılması məqsədilə bir sıra konkret layihələr həyata keçirilib.

**Əsəd rejimi erməni işğalı dövründə Qarabağdakı separatçı rejimə hərtərəfli köməklik edib. Bununla bağlı xarici və erməni mətbuatında faktlar yer alıb. Xüsusilə, Suriya ermənilərinin köçürülərək erməni işğalı altında olan Azərbaycan torpaqlarında yerləşdirilməsi planı bu iki dövləti daha da yaxınlaşdırıb - Erməni mətbuatı etiraf edir ki, bu qeyri-qanuni məskunlaşdırma hələ Suriyada siyasi böhranın yaranmasından əvvəl başlamışdı. Suriyadan olan ilk erməni ailəsi işğal olunmuş ərazilərə 2008-ci ildə gəlmişdi. Suriya ermənilərinə bu torpaqlarda 10 ildən artıq müddətdə yaşamaq şərtilə bütün əmlak üzərində tam mülkiyyət hüququnun verilməsi qaydası şamil edilirdi**

### Suriya erməniləri Azərbaycan torpaqlarına yerləşdirilirdi...

Əsəd rejimi erməni işğalı dövründə Qarabağdakı separatçı rejimə hərtərəfli köməklik edib. Bununla bağlı xarici və erməni mətbuatda faktlar yer alıb. Xüsusilə, Suriya ermənilərinin köçürülərək erməni işğalı altında olan Azərbaycan torpaqlarında yerləşdirilməsi planı bu iki dövləti daha da yaxınlaşdırıb - Erməni mətbuatı etiraf edir ki, bu qeyri-qanuni məskunlaşdırma hələ Suriyada siyasi böhranın yaranmasından əvvəl başlamışdı. Suriyadan olan ilk erməni ailəsi işğal olunmuş ərazilərə 2008-ci ildə gəlmişdi. Suriya ermənilərinə bu torpaqlarda 10 ildən artıq müddətdə yaşamaq şərtilə bütün əmlak üzərində tam mülkiyyət hüququnun verilməsi qaydası şamil edilirdi. Suriyalı "qaçqınlar" Ermənistan Respublikası pasportunu həm İrəvana gələndə, həm də hələ yola düşməzdən əvvəl öz vətənlərində ala bilərdilər. Beləliklə onların bir çoxu Ermənistana artıq bu ölkənin vətəndaşları kimi gəlirdi. Həmin ermənilərə isə Suriya dövlətinin maliyyəsi ilə Azərbaycanın işğal altındakı torpaqlarında məskunlaşma və ev tikməsi üçün şərait yaradılırdı. Xatırladaq ki, 2012-2015-ci illərdə, köçürülən əhalinin tikinti materialları ilə təmin olunmasına Suriyanın əli ilə Ermənistan tərəfindən 3 milyard Ermənistan dramı (5,8 milyon ABŞ dolları) ayrılmışdı. Təkcə 2015-ci ildə bu məqsədlər üçün təxminən 350 milyon Ermənistan dramı (673 min ABŞ dolları) ayrılıb.

### Terrorçu "Ozanyan batalyonu", yoxsa Ermənistanın gizli dəstək qüvvəsi?



Əsəd rejimi ilə Ermənistan arasında hərbi sahədə əməkdaşlıq da daim "aktuallığını" qoruyub. Hər iki tərəf gizli razılaşmalarla terror təşkilatlarının fəaliyyətinə ciddi dəstək verib. Eləcə də, bu "müdafiə planları"nda Ermənistanın Suriyadakı erməni icmasının təhlükəsizliyini təmin etmək adı altında bir sıra dəstək proqramları yer alıb. Suriyada fəaliyyət göstərən erməni terror təşkilatları Əsəd rejimi ilə sıx əməkdaşlıq edib - Bunların ən tanınmışı "Nubar Ozanyan adına erməni batalyonu"dur. Bu təşkilat Əsəd rejimi və PKK-nın Suriya qolu olan YPG ilə yaxın əlaqələr saxlayırdı. Suriyadakı erməni diasporu bu təşkilatlara həm maliyyə, həm də insan resursları baxımından dəstək verirdi.

Nubar Ozanyan batalyonu isə 2019-cu ildə Suriyanın şimal-şərqində yaradılıb. Bu silahlı qrup, PKK-nın Suriya qolu olan YPG ilə yaxın əlaqələrə malikdir və əsasən erməni diasporunun nümayəndələrindən təşkil olunub. Batalyon öz adını ASALA-nın (Erməni Gizli Ordusu) keçmiş komandirlərindən biri olan Nubar Ozanyandan alıb. Nubar Ozanyan 2017-ci ildə Suriyada öldürülüb və bu terrorçu Ermənistanda "milli qəhrəman" kimi təqdim edilir.

Batalyonun yaradılmasının əsas məqsədi Suriyadakı erməni icmasını "müdafiə etmək" adı altında bölgədəki siyasi və hərbi fəaliyyətlərini gücləndirmək olub. Lakin praktikada bu qrup Suriya münaqişəsində Əsəd rejiminə dəstək vermək və YPG ilə birgə fəaliyyət göstərmək məqsədi güdürdü. Bununla yanaşı, qrup Ermənistanın regional maraqlarını müdafiə etmək üçün də fəaliyyət göstərib. İkinci Qarabağ müharibəsi dövründə Ozanyan batalyonunun böyük hissəsi Ermənistan tərəfindən döyüşüb. Bu terror dəstəsi Ermənistan rəhbərlərinin "işinə yaradığı" üçün rəsmi İrəvan və erməni diasporu batalyona həm maliyyə, həm də kadr baxımından dəstək verir. Xüsusilə Fransadakı erməni icması terrorçu qrupun əsas sponsorları sırasındadır. Bu terrorçu qrup həm Azərbaycan, həm də Türkiyə əleyhinə iş aparır - qrup qondarma "erməni soyqırımı" məsələsini beynəlxalq ictimaiyyətə yalan və qərəzli şəkildə təqdim etmək üçün siyasi vasitə kimi də fəaliyyət göstərir. Ermənistanın dəstəyi ilə yaradılan batalyon Türkiyə tərəfindən terror qruplaşması kimi tanınır. Azərbaycan bu batalyonun Ermənistanın regional terror şəbəkələrinin bir hissəsi olduğunu bəyan edib. Qəribədir ki, Fransa da daxil olmaqla bir sıra sözdə terrora qarşı olan dövlətlər bu qrupun mövcudluğunu susqunluqla qarşılayıb.

**Nubar Ozanyan batalyonu isə 2019-cu ildə Suriyanın şimal-şərqində yaradılıb. Bu silahlı qrup, PKK-nın Suriya qolu olan YPG ilə yaxın əlaqələrə malikdir və əsasən erməni diasporunun nümayəndələrindən təşkil olunub. Batalyon öz adını ASALA-nın (Erməni Gizli Ordusu) keçmiş komandirlərindən biri olan Nubar Ozanyandan alıb. Nubar Ozanyan 2017-ci ildə Suriyada öldürülüb və bu terrorçu Ermənistanda "milli qəhrəman" kimi təqdim edilir**

### Hələbdəki erməni hərbçilər Əsədə dəstək verirdi...

Bəlli olduğu kimi, Ermənistan hərbçiləri Hələbdə xidmət edib - bu missiya "mina təmizləmə və humanitar yardım" kimi qələmə verilsə də, alt məqsəd fərqli olub. Ermənistanın rəsmi açıqlamalarının əksinə olaraq, missiyanın əsas məqsədinin Əsəd rejiminə dəstək olduğu aydın görünür. Ermənistan, Suriyadakı erməni icmasının təhlükəsizliyini bəhanə edərək Əsəd rejiminin beynəlxalq səviyyədə dəstəklənməsinə töhfə verirdi. Eyni zamanda, Ermənistanın "humanitar missiyası" zamanı onun hərbçilərinin Əsəd ordusunun nəzarətindəki ərazilərdə fəaliyyət göstərməsi və ordunun əməliyyatlarına dəstək göstərməsi haqqında məlumatlar yayılmışdı. Ermənistanın hərbçiləri minatəmizləmə işlərini əsasən Əsəd rejiminin nəzarətində olan strateji bölgələrdə həyata keçirirdi ki, bu da rejimə hərbi üstünlük təmin edirdi.

Xatırladaq ki, həm Azərbaycan, həm də Türkiyə dəfələrlə Ermənistanın Suriyada hərbi mövcudluğuna qarşı etiraz edib. Bu addım bölgədə Ermənistanın hərbi fəaliyyətlərinin genişlənməsi kimi qiymətləndirilib.



### Əsəd rejimi hər zaman Ermənistanı müttəfiqi sayıb...

Əsəd rejimi ilə Ermənistan arasındakı bu "isti münasibət" qarşılıqlı davam edib. Məsələn, verilən məlumatlara görə, Ermənistan İran vasitəsilə Əsəd rejiminə hərbi texnika yardımları edirmiş. Əsasən Fransadan alınan və Əsəd rejiminə ötürülən bu texnikalar rejimin müharibədə mövqelərini möhkəmləndirmək üçün istifadə olunub.

Bunun qarşılığında isə, Bəşər Əsəd rejimi həmişə ermənipərəst mövqedə dayanıb. Azərbaycan və Ermənistan arasında olan münaqişələrdə Əsədin siyasəti Ermənistanı dəstəkləmək olub - Suriyanın hazırda devrilmiş hakimiyyəti hətta  İƏT çərçivəsində də Azərbaycanın maraqlarına qarşı çıxış edib. Ermənistanla bağlı bəzi qətnamələrin qəbul edilməsinə mane olmağa çalışıb və qəbul olunan sənədlərə qoşulmayıb. Məsələn, Suriya Azərbaycanın İƏT-də "Dağlıq Qarabağ"la bağlı təşəbbüslərinə dəstək verməkdən imtina etmişdi.

Eyni mövqeni Əsəd rejimi beynəlxalq təşkilatlarda da qərəz nümayiş etdirib, dəfələrlə Azərbaycanın əleyhinə mövqe sərgiləyib. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi zamanı Suriya bu təşəbbüsə qarşı səs vermişdi. Eyni zamanda, BMT və digər platformalarda Azərbaycanın ərazi bütövlüyünə dair sənədlərə dəstək verməkdən yayınıb.

**Əsəd rejimi beynəlxalq təşkilatlarda da qərəz nümayiş etdirib, dəfələrlə Azərbaycanın əleyhinə mövqe sərgiləyib. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi zamanı Suriya bu təşəbbüsə qarşı səs vermişdi. Eyni zamanda, BMT və digər platformalarda Azərbaycanın ərazi bütövlüyünə dair sənədlərə dəstək verməkdən yayınıb**

Artıq Əsəd rejimi yoxdur - Ermənistanın isə "başı" yenə də "daşa" dəydi. Artıq erməni yalanlarını, terrorçu hərəkətlərini dəstəkləyən rejim tarixin arxivinə göndərildi. Təbii ki, bu uğurun əl-

### Türkiyə terrora qarşı davamlı mübarizə sərgiləyir

də olunmasında Türkiyənin xidmətləri danılmazdır. Azərbaycanın rəsmi müttəfiqi, mühüm bir coğrafiyanın aparıcı siyasi-hərbi aktoru olan Türkiyə bütün dövrlərdə terrora qarşı mübarizənin ön sırasında yer alıb. Bu mübarizədə Ankara hər zaman yanında ən yaxın müttəfiqi olan Azərbaycanı görür, dəstəyini hiss edir. İki ölkənin birgə antiterror təlimləri bunu bir daha təsdiqləyir.

Terrorçu Ermənistanın müttəfiqi olan Əsəd rejimi isə artıq yoxdur. Erməniperəst qurupun ən fəal üzvlərindən olan, Fransa və Hindistanın yaxın "silahdaşı" sayılan Əsəd rejiminin ömrü bitib. Xatırladaq ki, Fransa, Hindistan, Ermənistan və Suriya bir çox məsələlərdə siyasi-hərbi əməkdaşlıq edirdilər.

Təsadüfi deyildi ki, Qarabağın ermənilər tərəfindən işğalını dəstəkləyən Əsəd rejimi Kəşmir məsələsində də Hindistanın tərəfdaşı sayılırdı. Bu mənada Əsədin devrilməsi ilə həm Ermənistan, həm də Hindistan məğlub ölkə sayılır...

***P.İSMAYILOV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN



## Mühüm işlər görülməkdədir

# Diasporumuzun inkişafı naminə...

Bu gün Azərbaycan diasporunun təşkilatlanması və vahid ideya ətrafında birləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Diasporumuz Azərbaycanın xarici siyasətinə yön verən amillərdən birinə çevrilib. Bunun da əsas səbəbi dünya ölkələrindəki azərbaycanlılarla dövlətimizin koordinasiyalı fəaliyyətidir. Çünki Azərbaycan diasporunun arxasında dövləti, dövlətin siyasəti var. Bunun nəticəsidir ki, diasporumuz Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında yaxından iştirak edir, milli maraqlarımızın qorunması işində səmərəli fəaliyyət ortaya qoyur.

Diaspor siyasətinin həyata keçirilməsi, diaspor təşkilatlarının fəaliyyəti və soydaşlarımıza müxtəlif sahələrdə dəstək göstərilməsi məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsi də davamlı şəkildə fəaliyyət göstərməkdədir. Məlumdur ki, xaricdə yaşayan hər insanın arxasında bir dövlət, bir qurum yoxdursa, onun çox iş görməsi imkansızdır. Burada Azərbaycan dövləti rəsmi siyasətini ortaya qoyub. Dövlətimizin gerçək nümayəndələri onun xaricdə yaşayan soydaşlarıdır. Ona görə də ölkəmiz bu istiqamətdə lazım olan məqsədyönlü siyasət yürüdür. Artıq Azərbaycan diasporu kifayət qədər inkişaf edib.

Diasporumuz xarici ölkələrdə təhsil alan tələbələri də unutmur. Onlar üçün zaman-zaman layihələr təşkil edirlər. Bundan başqa, Azərbaycan həqiqətlərinin müxtəlif dünya ölkələrində təbliği üçün mühüm qurultaylar keçirilir, çoxsaylı tədbirlər baş tutur, eyni zamanda Azərbaycan evləri fəaliyyətə başlayır.

## Azərbaycan-Moldova Dostluq xiyabanı

Dekabrın 5-də Kişineuda “Xarıbülbül” Azərbaycan-Moldova Dostluq xiyabanının açılışı olub. Diaporla İş üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, xiyaban Moldova Azərbaycanlıları Konqresi (MAK) ictimai təşkilatının təşəbbüsü, Azərbaycanın Moldovadakı səfirliyi və Kişineu Bələdiyyəsinin birgə əməkdaşlığı çərçivəsində salınıb.

Tədbirdə Azərbaycanın Moldovadakı səfiri Ülvi Baxşəliyev, Moldova parlamentinin üzvü və Moldova-Azərbaycan parlament dostluq qrupunun sədri Vitaliy Jakot, Moldovanın Ekologiya Nazirliyinin dövlət katibi Georqe Xadcer, Kişineunun vitse-prezidenti İrina Qutnik, MAK-ın sədri Elçin Bayramov və təşkilatın nümayəndələri, eləcə də bələdiyyə nümayəndəsi Dmitri Gorelko iştirak edib.

Açılış nitqi ilə çıxış edən Elçin Bayramov, eləcə də digər iştirakçılar Azərbaycan və Moldova arasında dostluq əlaqələrinin möhkəmlənməsinin əhəmiyyətindən danışıb. Həmçinin qeyd olunub ki, bu cür aksiya BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) ilhamlanaraq həyata keçirilib.




## ABŞ-da yeni diaspor təşkilatımız...

Dekabrın 6-da işə ABŞ-ın Kolorado ştatında yaşayan soydaşlarımız Azərbaycan İcmasının “Koloradoda Azərbaycan Diasporu” adlanan ilk diaspor təşkilatını yaradıblar. Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, təşkilatın məqsədi yerli Azərbaycan İcmasının Amerika cəmiyyətində təmsilçiliyini artırmaq və bu missiyanı gələcək nəsillərə ötürməkdir.

Kolorado azərbaycanlılarının ABŞ-da yaşayan digər etnik qruplar, yerli icmalar və gənc nəsil arasında sıx əlaqələrinin qurulması, habelə Azərbaycan dilinin və mədəniyyətinin təbliği də təşkilatın əsas hədəflərindəndir. Yeni yaradılan təşkilatın təsisçisi və rəhbəri Nigar Şıxsəfiyeva Azərbaycanın diaspor fəaliyyətinin genişləndirilməsi, ölkəmizin ABŞ-da tanıdılması istiqamətində mühüm addımlar atılacağını vurğulayıb.



## Rotterdamda mühüm qurultay...

Dekabrın 9-da Rotterdamda Benilüks Azərbaycanlıları Konqresinin (BAK) VI qurultayı keçirilib. Qurultay Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Qurultayda əvvəlcə BAK-ın fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Qurultayda Azərbaycanın Niderlanddakı səfirliyinin birinci katibi Vüsal İbrahimov, Niderland-Azərbaycan “Odlar Yurdu” Cəmiyyətinin və Avropa Azərbaycanlıları Media Qrupunun nümayəndələri, həmçinin BAK-ın nəzdində fəaliyyət göstərən təşkilatların rəhbərləri, diasporumuzun fəal üzvləri iştirak ediblər.

Qurultayda təşkilati məsələlər müzakirə olunub, yeni sədr və 11 nəfərdən ibarət İdarə Heyəti seçilib. Elsevər Məmmədov yekdilliklə yenidən Benilüks Azərbaycanlıları Konqresinin sədri seçilib və bu vəzifəyə növbəti 4 il müddətinə təsdiqlənib.

Tədbir iştirakçıları BAK-ın növbəti 4 il üçün fəaliyyət planını müzakirə ediblər. Eyni zamanda, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun təbriki qurultay iştirakçılarına çatdırılıb.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**



# Qlobal istiləşmə insanı tez qocaldır

Sietldə keçirilən Amerikanın Gerontologiya Cəmiyyətinin illik elmi yığıncağında təqdim olunan araşdırmaya görə, uzunmüddətli istiliyə məruz qalma insan orqanizmində molekulyar səviyyədə qocalmanı sürətləndirə bilər. ABŞ-da aparılan bu tədqiqat 2016-2017-ci illərdə 56 yaş və yuxarı 3800 nəfər üzərində həyata keçirilib.

“Nature” jurnalı xəbər verir ki, tədqiqatçılar “epigenetik saat” adlanan DNT-dəki kimyəvi dəyişiklikləri təhlil edərək bu dəyişiklikləri ABŞ-ın istilik xəritələri ilə müqayisə ediblər. Məlum olub ki, 26,7°C və ya 32,2°C-dən yüksək temperaturda daha çox gün keçirən insanların molekulyar yaşı soyuq iqlimdə yaşayanlardan daha yüksəkdir. İsti günlərin 10 faizlik artımı molekulyar yaşın 0,12 il artması ilə əlaqələndirilib.

Cənubi Kaliforniya Universitetinin gerontoloqu Eun Young Choi-nin sözlərinə görə, fiziki sağlamlıq problemləri dərhal ortaya çıxmasa da, istiliyin orqanizmə hüceyrə və molekulyar səviyyədə təsiri ola bilər. Bu təsirlər isə gələcəkdə sağlamlıq problemlərinə və hətta əlilliyə səbəb ola bilər.

Kopenhagen Universitetinin epidemioloqu Rina So araşdırmanın dəyərli olduğunu vurğulayıb. O, bioloji markerlərə yönəlmiş bu yanaşmanın ölüm və ya xəstəlik göstəricilərindən fərqləndiyini qeyd edib. Finlandiyanın Tampere Universitetindən Linda Enroth isə istiliyin qocalma prosesinə təsirini daha dəqiq müəyyənləşdirmək üçün əlavə araşdırmalara ehtiyac olduğunu bildirib.

Bu tədqiqat, istiliyin sağlamlığa təsiri ilə bağlı qlobal səylərin bir hissəsi olaraq, iqlim dəyişikliyinin insan biologiyasına təsirini daha yaxşı anlamağa kömək edə bilər.

## İdman

## Fərid Qayıbov COP9-un Büro İclasında iştirak edib



Gənclər və idman naziri Fərid Qayıbov İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyaya Tərəf Ölkələrin 9-cu Konfransının (COP9) növbəti Bürosunun vitse-prezidenti kimi büronun iclasında iştirak edib.

“Report” nazirliyin mətbuat xidmətinə istinadən xəbər verir ki, konfrans Estoniyanın paytaxtı Tallində baş tutub.

Tədbirdə dopinqə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, effektiv strategiyaların tətbiqi və ölkələr arasında təcrübə mübadiləsinin təşviqi kimi mühüm məsələlər müzakirə edilib.

## AÜF əməkdaşlıq memorandumu imzalayıb




Azərbaycan Üzgüçülük Federasiyası (AÜF) qarşılıqlı əməkdaşlığa dair memorandum imzalayıb.

AÜF-ün mətbuat xidmətindən “Report”a verilən məlumata görə, idmançıların və məşqçilər heyətinin psixoloji, fiziki və zehni sağlamlığını dəstəkləmək, onların şəxsi və peşəkar inkişafını təşviq etmək məqsədilə ölkənin aparıcı psixoloji və kouçinq mərkəzi olan “İnsun” Yaşam Mərkəzi ilə razılaşma əldə olunub.

Sənədə əsasən, federasiyanın tərkibində olan su idman növləri ilə məşğul olan milli komandanın üzvləri bu mərkəzdə davamlı olaraq xüsusi seminar və seanslarda iştirak edəcək, yarışlar öncəsi psixoloji durumlarının daha da yaxşılaşdırılması üçün xüsusi təlimlər keçəcəklər.

Əməkdaşlıq memorandumunun imzalanması mərasimində “İnsun” Yaşam Mərkəzinin təsisçisi Nigar Ələsgərova, AÜF-ün vitse-prezidenti Tamerlan Abdullazadə və baş katib Fəxri Həsənov iştirak ediblər. Görüş zamanı qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə olunub.

## Azərbaycanın futzal üzrə Yüksək və Birinci liqalarında qış “transfer pəncərəsi”nin vaxtı müəyyənləşib




Azərbaycan futzal üzrə Yüksək və Birinci liqalarında iştirak edən klublar üçün qış “transfer pəncərəsi”nin vaxtı müəyyənləşib.

“Report” xəbər verir ki, bu barədə Futzal Federasiyasının mətbuat xidməti məlumat yayıb.

“Pəncərə” gələn il yanvarın 6-da açılacaq. Komandalar yeni transferlərini fevralın 6-sı, saat 23:59-a qədər qeydiyyatdan keçirə bilərlər.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4880
Sifariş: 2874
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli